20_27 IYUl-QARA.qxd 5/29/2025 10:55 PM Page 1

UNIKAL

№20 (2250) 30 may 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Üç müttəfiq-qardaş ölkənin Zirvə Görüşü: Laçından dünyaya mühüm mesajlar



Səh.9

# Ərdoğan Zəngəzur dəhlizi ilə bağlı İrana çağırış etdi

*"Türkiyə İrandan Zəngəzur aşırımının açılması üçün atılan addımları dəstəkləməsini gözləyir". "Unikal" xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Laçından qayıdarkən jurnalistlərlə söhbətində deyib. "Zəngəzur aşırımı Azərbaycanın Naxçıvanla quru əlaqəsi olmaqla yanaşı, həm də Türkiyədən türk dünyasına uzanan yeni inteqrasiya xəttidir. Bu keçidin qısa müddətdə açılması həm də Qafqazın nəqliyyat və enerji infrastrukturunu gücləndirəcək. Qonşumuz İrandan da sülhə, sabitliyə və inkişafa xidmət edəcək bu addımları dəstəkləyəcəyini gözləyirik. Əslində, bundan regionumuzda qazanc əldə etmək istərdik. Atılan hər addım...*

Səh.2

## "Bölgədə yeni geosiyasi və geohərbi konfiqurasiya formalaşıb"



*Politoloq Zaur Məmmədov "Unikal"a müsahibə verib. O, Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsinin əhəmiyyətindən, Azərbaycan, Türkiyə Prezidentlərinin və Pakistanın Baş nazirinin Zirvə görüşündən və üç ölkə birliyinin gələcəkdə hansı yeniliklərə imza atacağından danışıb.*

Səh.4

## Azərbaycan təhsilində növbəti qalmaqal




*Yola salmaq üzrə olduğumuz həftə Azərbaycan təhsilində növbəti qalmaqal baş verdi: Elm və Təhsil Nazirliyi lisey və gimnaziyalara IV, V, VII siniflər üzrə qəbul imtahanlarını qəfil və əsaslandırılmamış şəkildə dayandırdı. Bildirildi ki, bu dəfə lisey və gimnaziyalara qəbul yalnız 6-cı sinifdən aparılacaq.*

Səh.8

## Elgünün ölüm səbəbi açıqlandı



*Elgün İbrahimovun ölümü ilə bağlı istintaq davam etdirilir. "Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti birgə məlumat yayıb. Bildirilib ki, mayın 13-də 2007-ci il təvəllüdlü Elgün İbrahimovun Gəncə şəhərində müalicə aldığı xəstəxanada ölməsi...*

Səh.3

20_27 IYUl-QARA.qxd 5/29/2025 10:56 PM Page 2



# "Müğənni "sevgili" deməyə qorxur" - Nura Suri



***Müğənni Nura Suri açıqlaması ilə diqqət çəkib.***

”Xəbərin var?”da qonaq olan Nura müğənnilərin şəxsi həyatının müzakirə olunmasına reaksiya verib: ”Müğənni ”sevgili” sözünü efirdə deməyə utanır, qorxur, çəkinir ki, haqqında pis fikirləşərlər. Biri deyəndə ki, filankəsin sevgilisi var, onu qınaq obyektinə çevirməyə başlayırlar. Bir sənətçinin şousu, görüntüsü, geyimi, sənəti bir qıraqda qalır. Ancaq onu danışırlar ki, filankəsə bunu dedi, belə hərəkət etdi. Bütün xarici kanallarda müğənnilərin həyatları müzakirə olunur, Ancelina ilə Bred Pitt boşandı, Coni Deppin xanımı ilə məhkəməsi bütün dünyaya göstərildi. Fikrimcə, bu, müzakirə olunası və qınanılası mövzu deyil. Müğənnidirsə, mahnısını bəyənirəmsə, şəxsi həyatında kiminlə nə etdi, kiminlə görüşdü, kiminlə yatdı,bunlar mənə maraqlı deyil”.//Olay.az

# “Efirdə çıxıb yekə-yekə danışdı ki... - Rəqsanədən bəstəkara cavab

***Müğənni Rəqsanə İsmayılova ”odlu-alovlu” açıqlamalar verib.***

O, bəstəkar Hikmət Aslanovla aralarında yaşanan qalmaqaldan danışıb.

”Hikmət Aslanovun ”Alınmadı” adlı mahnısını oxumuşam. Allahdan istəmişəm, onun gözü çıxsın. Mahnını yutubdan sildirdi. Lazım olsaydı, onu qoydurardım. Orucluq ayı idi. Dedim ki, o, bu ayı anlamır, mən başa düşdüm. Efirdə çıxıb yekə-yekə danışdı ki, mahnını sildirmişəm. Onsuzda bu musiqidən mən pul qazanıram. Sənin pisliyin özünə qaldı.



Vaxtında Rəqsanənin hesabına pullar yemisən. Sildirməklə deyil, ruzini verən Allahdır. Öz millətimizik də, ay gözün çıxsın. Halbuki mənim mahnılarımdan nə qədər pullar qazanmısan. Başa düşürəm, müəllif hüququdur. Paxıllığın özünə qaldı. İndi mən də acığa nə qədər mahnın varsa, hamısını efirlərə çıxıb oxuyacağam. Görüm mənə nə edəcəksən? Yəni qorxmuram biləsən”.

# "Bakı toylarına qorxa-qorxa gedirəm" - Manaf Ağayev



***Müğənni Manaf Ağayev ”Gün ortası” verilişində qonaq olub.***

Axşam.az xəbər verir ki, ifaçı Bakı toylarına getməyə çəkindiyini bildirib. ”Qazax, Ağstafa, Şəmkir aşıq zonasıdır. Şirvanda isə tamam başqa musiqidir: şikəstəsi, qəzəli olur. Qarabağda indi-indi dəyişib. Əvvəl uşaq deyə bilməzdi ki, ”mən filankəs müğənnini istəyirəm”. O vaxt elə şey yox idi. Amma indi ata da bir söz deyə bilmir. Saatlı, Sabirabad, Əlibayramlı burada oynamalı mahnılardır. Burada muğama qulaq asdı yoxdur.

Bakı kəndlərindən mənə toy təklifləri gəlir, deyirəm ki, mənlik deyil. Cavab verirlər ki, başa düşdük nəyi deyirsən. Muğam dəsgahını, qəzəli səhv oxudun, mahnını saxladırlar. Bakıda musiqini elə bilirlər ki, heç Qarabağda bu cür bilən yoxdur. Bakı toylarına qorxa-qorxa gedirəm ki, orada nə edəcəyəm? Xanəndələrin arxasında gizlənirəm. Sıra mənə gələndə oxuyuram ki, camaat oynasın. Bunu etiraf edirəm” deyə, M.Ağayev bildirib.




# "Həyatı boyu bu iki şəxsi bağışlamayacağam" - İbrahim Tatlısəs

***Ustad sənətçi İbrahim Tatlısəs ”Gazete Magazin”ə açıqlaması ilə diqqət çəkib.***

”Unikal” xəbər verir ki, müğənni həyatında iki insanı heç vaxt bağışlamayacağını bildirib.

Adlarını çəkmədən bəhs etdiyi şəxslərlə bağlı Tatlısəs, ”Məzarıma da gəlməsinlər, gün olar ölər gedərəm. Sevənlərim onları görəndə qovsunlar. Onlara əfv yoxdur, diləsələr də yoxdur. Həmin şəxsləri yanımda belə istəmirəm, buna görə İzmirə köçdüm. Lazım gələrsə, Bodrumdan da köçərəm. Prokurorluqdan uzaqlaşdırma alacağam”, - deyib.

Tatlısəs adını açıqlamadığı şəxslərin birinin kişi, birinin isə qadın olduğunu bildirib. Bunun fonunda aparıcı sənətçiyə ”Qadın Didem Kınalımı?”, - sualını verib. O, isə sualı cavabsız qoyub.

Sənətçi bunun vəsiyyət olduğunu qeyd edib.

***Gülayə Mecid***

# Qumral reklam qiymətini açıqladı



***Müğənni Qumral reklam qiymətini açıqlayıb.***

Bu barədə ifaçı ”Rəngarəng”də danışıb. Qumral deyib ki, bədən şəkilləndirmə əməliyyatını da reklam qarşılığında edib: ”Bütün əməliyyatlarımın qiyməti 80 min manatdır. Amma reklam qarşılığında olub. Məndən sonra bir il məni bəyənib həkimin yanına gediblər. Normalda instaqramda bir paylaşım üçün 1500 manat alıram”. (Bizim.Media)

# Ağamirzə: "O, çox "təhlükəli" meyxanaçı idi"

***Baku TV-nin ”Qapqara” verilişinin budəfəki qonağı meyxana ustası Ağamirzə Məmmədov olub.***

Verilişdə Rəşad Dağlının çox ədəbli biri olduğunu söyləyən meyxana ustası onunla bağlı xatirələrini bölüşüb: ”Rəşadı yaxşı tanıyıram. Həmişə hörmətcil biri olub. Məclislərdə heç vaxt məndən öncə mikrofonu əlinə almayıb. Hətta bir dəfə arxamca gələrək belə demişdi: ”Sən birinci hamını salamlamalı, qafiyə tutmalısan, sonra da biz meyxana deməliyik”. Ağamirzə Məmmədov qəzəlxan Məşədibabadan bəhs edərkən isə ”o, çox ”təhlükəli” meyxanaçı idi. Heç kimdən çəkinmirdi” deyib.

O həmçinin meyxananın əvvəlki və hazırkı dövrü arasındakı fərqlərdən, övladlarından və onlara verdiyi tərbiyədən danışıb.



20_27 IYUI-QARA.qxd 5/29/2025 10:56 PM Page 3





## Ədalət Vəliyev Mütəllim Rəhimovla görüşdü

***Mayın 29-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Ədalət Partiyasının IX qurultayında yeni seçilmiş sədri Mütəllim Rəhimov ilə görüşüb.***

"Unikal" xəbər verir ki, M.Rəhimovu partiya sədri seçilməsi münasibətilə təbrik edən Prezident Administrasiyasının şöbə müdiri ölkəmizdə demokratik münasibətlərin təcəssümü olan siyasi dialoqda partiyanın bundan sonra da fəal iştirakına ümid etdiyini bildirib. Həmçinin əldə olunmuş tarixi Qələbə, uğurla icra olunan Böyük Qayıdış proqramı, Prezident İlham Əliyevin təşəbbüsü ilə aparılan çoxsahəli islahatlar, ölkədə həmrəylik mühitinin qorunması üçün görülmüş işlər, sağlam iqtidar-müxalifət münasibətlərinin dəstəklənməsinin vacibliyi, konstruktiv əməkdaşlıq əlaqələrinin inkişafı və digər bu kimi məsələlər haqqında danışan Administrasiya rəsmisi son zamanlar siyasi partiyaların ölkənin ictimai həyatında artan rolunu qeyd edib.

Görüşdə cəmiyyəti düşündürən məsələlərlə bağlı siyasi partiyalar ilə açıq müzakirələrin aparılması məqsədilə təşkil olunan müxtəlif tədbirlər haqqında danışılıb və bundan sonra da mövcud təcrübənin inkişaf etdiriləcəyi vurğulanıb.

Sədri olduğu partiya üçün dövlətçilik mövqeyinin və milli maraqların hər zaman mütləq prioritet təşkil edəcəyini bildirən M.Rəhimov deyib ki, Ədalət Partiyası Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması məsələsində fəal mövqe tutacaq. İqtidarla və ölkədə fəaliyyət göstərən digər partiyalarla açıq əməkdaşlıq əlaqələrinin inkişafında maraqlı olduğunu vurğulayan M.Rəhimov gələcəkdə mövcud istiqamətdə müxtəlif layihələrin icra olunması niyyətini də diqqətə çatdırıb.

## Məsud Əfəndiyev rektorun müşaviri təyin edildi



***Azərbaycan elmi ictimaiyyətinin və beynəlxalq riyaziyyat elminin tanınmış simalarından biri, fizika-riyaziyyat elmləri doktoru professor Məsud Əfəndiyev Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) rektorunun müşaviri vəzifəsinə təyin olunub.***

"Unikal" xəbər verir ki, bu təyinat ölkənin aparıcı mühəndis və memarlıq ali təhsil müəssisəsində akademik mühitin gücləndirilməsi, elmi-tədqiqat fəaliyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması və universitetin qlobal elmi şəbəkələrə inteqrasiyası baxımından mühüm əhəmiyyət daşıyır.

Professor Məsud Əfəndiyev Dünya Azərbaycanlı Alimlər Birliyinin İdarə Heyətinin sədri olmaqla bərabər zəngin elmi fəaliyyəti, beynəlxalq miqyasda qazandığı nüfuz və akademik liderliyi ilə seçilir.

O, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

# Azərbaycan təhsilində növbəti qalmaqal

## Elm və Təhsil Nazirliyində kimlər öz yerində deyil? - Bir absurd qərarın ortaya çıxardığı acı həqiqət...

***Yola salmaq üzrə olduğumuz həftə Azərbaycan təhsilində növbəti qalmaqal baş verdi: Elm və Təhsil Nazirliyi lisey və gimnaziyalara IV, V, VII siniflər üzrə qəbul imtahanlarını qəfil və əsaslandırılmamış şəkildə dayandırdı. Bildirildi ki, bu dəfə lisey və gimnaziyalara qəbul yalnız 6-cı sinifdən aparılacaq. Qaydalara hansı səbəbdən dəyişiklik edildiyinə isə rəsmi aydınlıq gətirilmədi.***

Qərar cəmiyyətdə geniş rezonans doğurdu və valideynlərin haqlı, elə bir o qədər də sərt reaksiyasına səbəb oldu. Narazı valideynlərdən biri Zahidə Səmədin sözlərinə görə, övladı hazırlıqlarla yanaşı, hər ay 1 və ya 2 dəfə liseylərdə sınağa gedib: "Sınaq çox da minimal büdcə deyil, 12-15 manat olub və hamımız uşaqlarımızı ora göndərmişik. Bəs bu sınaqlar niyə təşkil olunurdu? Hətta mayın 31-nə, iyunun 1-nə sınaqlar var, onlara bilet alan insanlar var. Əgər imtahan olmayacaqdısa, niyə bu sınaqların təşkilinə icazə verilirdi? Niyə bu qərar sentyabrda, ilin ortasında - yanvarda deyil, imtahana 20 gün qalmış açıqlanır? Bu, şagirdlərin hüquqlarının tapdalanmasıdır. Bu qərarın qəbulunda məqsəd nədir?"

"Unikal"ın araşdırmasına görə, övladlarının lisey və gimnaziyalarda təhsil almasını istəyən valideynlər onları ən azı 2 il öncədən hazırlıqlara göndərirlər. "Bu hazırlıqlara hər ay minimum 150-200 manat xərclənir. Üstəlik, çox sayda əlavə dərs vəsaitləri, test kitabları alınır. Ödənişli sınaq imtahanlarına verilən pulları da nəzərə alsaq, bir uşağın hər hansı lisey və gimnaziyaya qəbulu üçün bir ayda çəkilən xərc ən azı 250 manat təşkil edir. Bir ildə bu, minimum 2500, iki ildə isə 5000 manat xərc deməkdir. Bu qədər xərcdən sonra qəfildən lisey və gimnaziyalara qəbulun yalnız 6-cı sinifdən aparılacağına qərar vermək çox absurd və anormal addımdır. Belə aydın olur ki, Elm və Təhsil Nazirliyinin məsul şəxsləri cəmiyyətdən qopublar, təhsil sahəsindəki gerçəkliklərdən xəbərsizdirlər" - bizimlə söhbətdə adının çəkilməsini istəməyən lisey müəllimi bildirib.

Təhsil eksperti Elmin Nuri isə "Qafqazinfo"ya açıqlamasında məlum qərarı gözlənilməz və bir o qədər də məyusedici adlandırıb: "Minlərlə uşaq il boyu hazırlaşıb ki, sonda imtahan verib, lisey-gimnaziyalara qəbul olunsunlar. Valideynləri pul, müəllimləri beyin xərcləyiblər. Özlərinin əziyyətindən isə danışmağa dəyməz. Belə məsələlər durduq yerə, birdən-birə "yalnız bu olmalıdır" prinsipi ilə olmur. Ümumiyyətlə, olmur və olmamalıdır da... Yaxşı, madam ki, qəbul yalnız VI siniflər üçündür, o zaman digər siniflərin qəbulunun dayandırılmasının səbəbi nədir?"

Milli Məclisin deputatı Ceyhun Məmmədov isə Demokrat.az-a açıqlamasında deyib ki, bu cür qərarların icrası ilə bağlı şəffaflıq və əvvəlcədən məlumatlandırma çox vacibdir: "Valideynlər və ümumilikdə ictimaiyyət belə dəyişikliklərə psixoloji və praktiki cəhətdən hazır olmalıdır. Ani və xəbərsiz qərarlar çaşqınlığa, narahatlığa və prosesin effektivliyinin azalmasına səbəb ola bilər. İctimaiyyətlə kommunikasiya daha güclü qurulmalı, müvafiq izahatlar və keçid dövrləri təmin olunmalıdır. Belə qərarların yalnız texniki və inzibati tərəfi deyil, həm də psixoloji və maddi təsirləri nəzərə alınmalıdır. Valideynlərin hazırlıqsız yaxalanması, həm emosional gərginliyə, həm də ailə büdcələrinə əlavə yükə səbəb ola bilər. Ona görə də bu cür addımlar atılmazdan öncə əhalinin vaxtında və doğun məlumatlandırılması çox vacibdir. Bu, həm etimadı artırar, həm də qərarın tətbiqini daha yumşaq və anlaşıqlı edər".

Cəmiyyətdəki artan narazılıqların ardından məlum qərar dəyişdirildi. Təhsil İnstitutundan bildirildi ki, "şagirdlərin lisey və gimnaziyalarda təhsil almağa böyük maraqlarını və tədris ili boyunca imtahan prosesinə hazırlıqlarını nəzərə alaraq bildirirk ki, 2025-2026-cı tədris ilində istisna olaraq V, VI və VIII siniflər üzrə də qəbul prosesi həyata keçiriləcək. Belə ki, mərkəzləşdirilmiş qaydada keçirilən qəbul imtahanında da IV, V və VII sinifdə təhsil alan (yəni 2025-2026-cı tədris ilində V, VI və VIII sinfə keçəcək) şagirdlərin də iştirakı təmin ediləcək".

Lakin yenə də qaranlıq qaldı ki, lisey və gimnaziyalara IV, V, VII siniflər üzrə qəbul imtahanlarının dayandırılmasına səbəb nədir?




Digər tərəfdən, son illərdə kim bilir neçənci dəfə təhsil sahəsində verilmiş bir qərarın nə əsaslandırılması açıqlandı, nə də öncədən - qərar ərəfəsində cəmiyyətdə müzakirələr aparıldı. Halbuki belə müzakirələr vacibdir, çünki təhsil cəmiyyətin bütün təbəqələrini səfərbər edən bir sahədir. Elə bir sahə ki, hər hansı qərar milyonlarla insanı - şagirdi, tələbəni, müəllimi, valideyni birbaşa şəkildə maraqlandırır. Lakin bizdə təhsilə məsul olanlar hər hansı müzakirəsiz və əsaslandırmasız, özü də qəfləti formada qərar verməyi artıq vərdişə çeviriblər. Lisey və gimnaziyalara qəbulla bağlı son qərarda olduğu kimi!

İctimaiyyətin narazılığını görüncə isə geri addım atmaq bu fikri bir daha qüvvətləndirir ki, təhsil sektoruna cavabdehlər bir çox qərarlar zamanı cəmiyyətin reallıqlarını nəzərə almırlar, görünür, belə reallıqlardan tam xəbərsizdirlər, ən əsası isə qərar verərkən ciddi şəkildə, dərindən düşünmürlər, ölçübiçmirlər. Buyurun, bu da sübut: lisey və gimnaziyalara qəbulla bağlı qərara dəyişikliyi əsaslandırmaq üçün rəsmi açıqlamada yazılıb - "şagirdlərin tədris ili boyunca imtahan prosesinə hazırlıqlarını nəzərə alaraq..."

Soruşmaq istəyirik: bəyəm bunu elə qərar vermədən nəzərə almaq olmazdımı? Həmin vaxt bunu nəzərə almaq Elm və Təhsil Nazirliyində doğrudanmı kimsənin ağlına gəlməyib? Ağlına gəlməyibsə, onda icazə verin, adı çəkilən nazirlikdə bir çoxlarının yerində olmadığını, cavabdehlik daşıdıqları sahənin məsuliyyətini hiss etmədiklərini düşünək...

***Toğrul Əliyev***

20_27 IYUI-QARA.qxd 5/29/2025 10:56 PM Page 4



# Üç müttəfiq-qardaş ölkənin Zirvə Görüşü: Laçından dünyaya mühüm mesajlar

***Ötən gün Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iştirakı ilə Zirvə görüşü keçirilib. Zirvə görüşündə liderlər dünyaya olduqca vacib mesajlar veriblər.***

Qeyd edək ki, Türkiyə və Pakistan liderlərinin məhz 28 May - Müstəqillik Günündə Azərbaycana gəlişi kifayət qədər maraqlı siyasi gedişdir. Müstəqillik Günündə Türkiyə və Pakistan liderlərinin ölkəmizə səfəri, Laçında görüşmələri faktiki olaraq iki dost-qardaş ölkənin Azərbaycanın yanında olduğunu göstərir.



Zirvə görüşünün əhəmiyyəti ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, Azərbaycan-Türkiyə-Pakistan birliyi ənənəvi olaraq bu formatda formalaşıb: "Bu, Azərbaycan üçün çox vacib bir formatdır, çünki onun tərkibində Azərbaycanın qarşı olan yeni müttəfiqi olan Türkiyə, həmçinin ölkəmizin strateji tərəfdaşı olan Pakistan dövləti var. Uzun müddətdir ki, biz Pakistanla əməkdaşlıq edirik. Unutmaq lazım deyil ki, Pakistan nüvə silahına malik olan yeganə İslam ölkəsidir. Dünyada gedən çox mürəkkəb geopolitik hadisələrin fonunda belə bir müttəfiqliyin olması həm üç ölkə, həm də region üçün olduqca vacib məsələdir", - deyə o qeyd edib.

T.Zülfüqarov Türkiyə və Pakistan dövlətlərinin Azərbaycan-Ermənistan sülh prosesindəki mövqeyindən də danışıb: "Biz görürük ki, Ermənistan özünə Azərbaycana qarşı olan yeni müttəfiqlərin axtarışındadır. Vurğulamaq yerinə düşər ki, Hindistan Ermənistana silah satışına görə 1-ci yerə çıxıb. Eyni zamanda, bu yaxınlarda baş verən Hindistan-Pakistan hərbi toqquşması onu göstərir ki, Pakistanın müdafiə imkanları çox yüksək səviyyədədir. Məlum olduğu kimi, Azərbaycan hərbi hava qüvvələri üçün Pakistan və Çinlə "JF-17" təyyarələrinin alınması ilə bağlı müqavilə imzalayıb.Hindistan isə Ermənistanla bir çox məsələlərdə hərbi əməkdaşlığı genişləndirir. Ermənistan Hindistanda istehsal olunan qırıcı təyyarələri də almaq niyyətindədir. Həmin təyyarələr ki, Pakistan-Hindistan hərbi toqquşması zamanı bir neçəsi Pakistan tərəfindən vurulub. Sözügedən Zirvə görüşü və orada verilən mesajlar istər-istəməz dolayısı ilə Ermənistana çox ciddi mesajdır. Yəni, Azərbaycanın öz müdafiə imkanlarını genişləndirməsi prosesi davam etdirilir. Ermənistanın ara-sıra səsləndirdiyi revanşist şüarları bizi narahat etsə belə, onlara lazımi şəkildə cavab verməyə hər zaman hazırıq".

Siyasi şərhçi Aqşin Kərimov isə deyib ki, Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Laçında verdiyi bəyanatlar bir məsələni ortaya qoyur. Onun fikrincə, liderlər regional, qlobal problemlərə dair yalnız öz qənaətlərini bölüşmür, eyni zamanda üçtərəfli yürüdüləcək qətiyyətli siyasəti elan edirlər: "Bu, dünya nizamında zərərli təsirlər yaradan hökmranlıqlara qarşı tutarlı və prinsipial mövqelərin üçtərəfli formatdakı elanıdır. Azərbaycan-Türkiyə-Pakistan ittifaqının yüksəlməsi regiondakı süni geosiyasi axarları dəyişmək, qlobal idarəetmə institutlarının hegemonluğunu neytrallaşdırmaq üçün müdafiə strategiyasını vurğulayır. Yəni Bakı-Ankara-İslamabad üçbucağı təkcə bir bölgənin - Cənubi Qafqazın deyil, ümumilikdə Avrasiya geosiyasətində əsas rolları qeyd edən bir platformaya çevrilir.

Mesajların Laçından verilməsinin isə ayrıca bir əhəmiyyəti var və bu, simvolik bir təzahürlə bərabər, gələcək mümkün təhdidlərdə Azərbaycan-Türkiyə-Pakistanın hərbi səylərini qeyd etməyə imkan verir. Yəni Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə, o cümlədən Şərqi Zəngəzur bölgəsinə hər hansı təhdid mənbəyi yaranarsa, Bakı-Ankara-İslamabad müttəfiqliyinin hərbi komponentləri döyüş əməliyyatlarında öz performasını göstərəcək.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Laçına ölkəsinin hava qüvvələrinin təyyarəsi ilə gəlməsi də bu mənada çox şeyi deyir".

Həmsöhbətimiz hesab edir ki, regiondakı əməkdaşlıq modellərində iştirak etmək istəyən güclər Azərbaycan-Türkiyə-Pakistan strateji kitabından səhifələr götürmək məcburiyyətindədir. "Üstəlik hər üç ölkənin yeni qlobal nizamyaradan mərkəzə çevrilən Çinlə yüksələn əlaqələri görünməmiş dərəcədə sürətli və dərin dəyişikliklər fonunda çeviklik və preventiv tədbirləri gücləndirən mexanizm yaradır. Göründüyü kimi, Bakı-Türkiyə-İslamabad əməkdaşlığı regionda ambisiyaları məhdudlaşdıran və qlobal geosiyasi rəqabəti balanslaşdıran əhəmiyyətə malikdir. Gələcəkdə bu platformaya maraq göstərən digər dövlətlərə açıq yanaşma da görünə bilər. Bu, Azərbaycan-Türkiyə-Pakistan əməkdaşlığının təkcə üç ölkə arasında deyil, daha geniş regional və beynəlxalq inteqrasiya üçün zəmin ola biləcəyini göstərir. Ehtimal ki, Azərbaycan-Türkiyə-Pakistan müttəfiqliyi Avrasiya geosiyasətini formalaşdıran Böyük Britaniya və Çinin diqqət mərkəzinə düşərək yeni-yeni əməkdaşlıqlar üçün formulları stimullaşdıracaq", - deyi A.Kərimov fikrini tamamlayıb.

Politoloq Turab Rzayev bakivaxti.az-a deyib ki, Türkiyə və Pakistan Azərbaycanın strateji partnyoru olaraq qalmaqdadır: "Laçına səfər, hava limanının birgə açılışı da xüsusi mesaj mahiyyəti daşıyırdı. Türkiyə və Pakistan açıq mesaj verdilər ki, Qarabağ Azərbaycanındır və bu məsələ müzakirəyə açıq deyil. Ölkəmizin ərazi bütövlüyünü, suverenliyini bərpa etməsi iki ən yaxın müttəfiqimiz tərəfindən tam dəstəklənir. Faktiki olaraq burada Ermənistana, ermənilərin hamisinə birmənalı mesaj verilir. Çünki bəzi ölkələr "boz zona" məsələsini yenidən diriltməyə çalışırlar. Türkiyə və Pakistan liderlərinin Laçına səfəri ilə bu məsələnin üzərindən birdəfəlik xətt çəkildi".

Analitikin sözlərinə görə, çox qəribə haldır ki, Türkiyə və Pakistan liderlərinin Azərbaycana səfər etdiyi dönəmdə İran rəhbəri Məsud Pezeşkianın Ermənistana səfəri müzakirə olunur: "Bu, Azərbaycanla münasibətdə hansı ölkənin necə davranış nümayiş etdirdiyini göstərir. Yəni Türkiyə və Pakistan strateji tərəfdaş saydıqları Azərbaycana, İran isə öz partnyoruna - Ermənistana getməyi planlaşdırır. Tehran da öz seçimini etmiş oldu".

***Murad İbrahimli***

# Ceyhun Bayramov Qətərin dövlət naziri ilə görüşdü

***29 may 2025-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Qətər Dövlətinin Xarici İşlər Nazirliyinin dövlət naziri Muhəmməd bin Əbdüləziz bin Saleh əl-Xuleyfi ilə görüşüb.***



XİN-dən "Unikal"a verilən xəbərə görə, görüş zamanı Azərbaycan-Qətər əməkdaşlığının perspektivləri, ikitərəfli və çoxtərəfli gündəlikdə duran məsələlər, habelə postmünaqişə dövründə bölgədə mövcud vəziyyət müzakirə edilib.

Ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, münasibətlərin daha da inkişaf etdirilməsi istiqamətində mövcud potensialdan istifadənin vacibliyi vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT), İslam Əməkdaşlıq Təşkilatı (İƏT), Qoşulmama Hərəkatı (QH), habelə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub, qarşılıqlı dəstək və həmrəyliyin davam etdirilməsinin zəruriliyi qeyd olunub. Ölkəmizin növbəti ildə İƏT sammitinə sədrliyi çərçivəsində əməkdaşlıq imkanlarından bəhs olunub.

Ötən il ölkəmizdə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində verilmiş qərarların əhəmiyyəti qeyd olunub, iqlim maliyyəsi mövzusunda əldə olunmuş bu nailiyyətlərin iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyətə töhfə olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov, həmçinin qarşı tərəfi keçmiş münaqişənin və Ermənistanın işğal siyasətinin nəticələri, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, işğaldan azad olunmuş ərazilərdə aparılan geniş miqyaslı bərpa və quruculuq işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesinin gedişatı barədə ətraflı məlumatlandırıb.

Regional sülh quruculuğu prosesinin qarşısında duran çağırışlar və maneələrdən bəhs edən nazir Ceyhun Bayramov Ermənistan konstitusiyası və bir sıra qanunvericilik aktlarında ölkəmizə qarşı ərazi iddialarının hələ də davam etdirildiyini diqqətə çatdırıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

20_27 IYUl-QARA.qxd 5/29/2025 10:56 PM Page 5



# İlham Əliyevə təbriklər gəlməkdə davam edir

***Xorvatiya Respublikasının Baş naziri Andrey Plenković Prezident İlham Əliyevə təbrik ünvanlayıb.***



"Unikal" xəbər verir ki, məktubda deyilir: "Hörmətli cənab Prezident. Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Xorvatiya Respublikası Hökuməti adından və öz adımdan Sizə və Azərbaycan xalqına səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuram.Xorvatiya Respublikası Azərbaycan Respublikası ilə səmimi münasibətlərə və səmərəli əməkdaşlığa böyük əhəmiyyət verir. Dialoqa, qarşılıqlı hörmətə və tərəfdaşlığa sadiqliyimiz müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və mədəni sahələrdə ikitərəfli əlaqələrin möhkəmlənməsinə töhfə verib. Əminəm ki, Xorvatiya ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq ümumi nailiyyətlərimiz əsasında dərinləşəcək, xalqlarımıza tərəqqi və firavanlıq gətirəcəkdir. Zati-aliləri, bu əlamətdar gün münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Azərbaycan Respublikasına və onun vətəndaşlarına davamlı rifah, əmin-amanlıq və tərəqqi arzulayıram. Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

Bəhreyn Krallığının vəliəhdi və Baş naziri Salman bin Həməd Al Xəlifə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Məktubda deyilir: "Zati-aliləri. Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı yetirirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq diləyirəm. Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

Omanın Sultanı Heytəm bin Tariq Al Səid Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Təbrikdə deyilir: "Zati-aliləri. Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluq duyuram. Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, səadət, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq diləyirəm".

Malta Respublikasının Prezidenti Miriam Spiteri Debono Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Təbrik məktubunda deyilir: "Zati-aliləri. 28 May - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə və xalqınıza Malta xalqı adından, həmçinin öz adımdan səmimi təbriklərimi çatdırıram. Bu il Malta Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı hörmət və ümumi anlaşma əsasında qurulmuş diplomatik münasibətlərin 30 illiyi qeyd olunur. Əminəm ki, dövlətlərimiz arasında münasibətlər gələcək illərdə də inkişaf edəcəkdir. Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və əmin-amanlıq, ölkənizə davamlı sülh, tərəqqi və firavanlıq arzulayıram. Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

İrlandiyanın Prezidenti Maykl Higgins Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

Təbrikdə deyilir: "Zati-aliləri. Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına İrlandiya xalqı adından və öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram. Qoy, gələcək illər Azərbaycan xalqına sülh, daha çox rifah və xoşbəxtlik gətirsin!"

Maldiv Respublikasının Prezidenti Məhəmməd Muizzu Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.

Təbrikdə deyilir: "Zati-aliləri. Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına Maldiv Hökumətinin və xalqının səmimi təbriklərini və xoş arzularını çatdırmaqdan böyük məmnunluq duyuram. Bu tarixi bayram Azərbaycan xalqının müstəqilliyi və öz müqəddəratını təyin etməsi ilə səciyyələnir, onun birliyini və mətanətini simvolizə edir. Maldiv Respublikası ölkələrimizin mənafeyinə uyğun olaraq ikitərəfli əlaqələri dərinləşdirməyə, tərəfdaşlığı inkişaf etdirməyə sadiqdir. Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətləri gələcək illərdə də inkişaf edəcəkdir. Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq diləyirəm. Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

# Ərdoğan Zəngəzur dəhlizi ilə bağlı İrana çağırış etdi

***"Türkiyə İrandan Zəngəzur aşırımının açılması üçün atılan addımları dəstəkləməsini gözləyir".***



"Unikal" xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Laçından qayıdarkən jurnalistlərlə söhbətində deyib.

"Zəngəzur aşırımı Azərbaycanın Naxçıvanla quru əlaqəsi olmaqla yanaşı, həm də Türkiyədən türk dünyasına uzanan yeni inteqrasiya xəttidir. Bu keçidin qısa müddətdə açılması həm də Qafqazın nəqliyyat və enerji infrastrukturunu gücləndirəcək. Qonşumuz İrandan da sülhə, sabitliyə və inkişafa xidmət edəcək bu addımları dəstəkləyəcəyini gözləyirik. Əslində, bundan regionumuzda qazanc əldə etmək istərdik. Atılan hər addım, açılan hər qapı və dəhliz iqtisadi fayda verəcək və zaman keçdikcə ölkələri bir-birinə daha da yaxınlaşdıracaq", - deyə Ərdoğan bildirib.

***Ağarza Elçinoğlu***

# Köç karvanı Laçının Bəylik kəndinə çatıb

***Mayın 29-da doğma yurduna yola salınan köç karvanı Laçın rayonunun Bəylik kəndinə çatıb.***

Bu mərhələdə köçürülən 163 nəfərdən ibarət 41 ailəyə yeni tikilmiş fərdi yaşayış evlərinin açarları təqdim edilib. Mərasimdə Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 43 mindən çox insan yaşayır.

# Nazirlikdən qar uçqunu ilə bağlı müraciat

***Fövqəladə Hallar Nazirliyi (FHN) qar uçqunu təhlükəsi ilə əlaqədar xəbərdarlıq edib.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir: "Temperaturun yüksəlməsi fonunda iyun ayının 3-nə kimi yüksək dağlıq ərazilərdə qar uçqunu ehtimalı mövcuddur. Bununla əlaqədar nazirlik vətəndaşları göstərilən müddətdə yüksək dağlıq ərazilərə səfərlərdən çəkinməyə, belə bir zərurət yarandıqda isə müvafiq təhlükəsizlik qaydalarına əməl etməyə, o cümlədən qar uçqunu ehtimalı olan yerlərdən, habelə dik yamaclardan kənar gəzməyə çağırır.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir! Təhlükə zamanı 112-yə zəng edin!".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxçıvani 5A
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Kanada parlamentinin önündə Azərbaycan bayrağı qaldırılıb

***28 May - Müstəqillik Günü münasibətilə Kanadanın paytaxtı Ottavada ölkə parlamentinin binası önündə Azərbaycan bayrağı ucaldılıb. Mərasim "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzi və Kanada Azərbaycan Evinin birgə təşkilatçılığı ilə baş tutub.***



"Unikal" xəbər verir ki, tədbirdə Ottava, Toronto, Monreal və digər şəhərlərdə yaşayan Azərbaycan icmasının nümayəndələri, diaspor təşkilatlarının rəhbərləri və fəalları, Azərbaycanın Kanadadakı müvəqqəti işlər vəkili Vasif Abutalıbov, Türkiyə Cümhuriyyətinin Kanadadakı səfiri Can Dizdar və Kanada parlamentinin ilk türk əsilli deputatı Sima Acan iştirak edib.

Kanada Azərbaycan Evinin təmsilçisi Sevinc Quliyeva, deputat Sima Acan, səfir Can Dizdar və müvəqqəti işlər vəkili Vasif Abutalıbov Azərbaycan xalqını bu əlamətdar gün münasibətilə təbrik edib, ölkəmizin müstəqillik tarixindən və onun əhəmiyyətindən danışıblar. Tədbir bədii proqramla davam edib. "Mənim Azərbaycanım" həftəsonu məktəbinin şagirdləri Azərbaycan rəqsləri və nağara ritmləri ilə çıxış ediblər. Ottavada fəaliyyət göstərən "Qarabağ" Azərbaycan dili məktəbinin şagirdləri isə vətənpərvərlik mövzusunda şeirlər səsləndiriblər.

Qeyd edək ki, 2023-cü ildə fəaliyyətə başlayan Kanada Azərbaycan Evi xaricdə mədəniyyətimizin, tariximizin, milli dəyərlərimizin yaşadılması və tanıdılması istiqamətində işlər görür.

20_27 IYUI-QARA.qxd 5/29/2025 10:56 PM Page 6



# Prezident Stiv Deynsi qəbul etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deynsi qəbul edib.***

"Unikal" xəbər verir ki, senator, ilk növbədə, Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərini dövlət başçısına çatdırıb.

O, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğunu deyib. Əfqanıstanda Amerika Birləşmiş Ştatları və Azərbaycan əsgərlərinin çiyin-çiyinə xidmət etdiyini, Kabil hava limanının təhlükəsizliyinə cavabdeh olan Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanı tərk edən ən sonuncu hərbi kontingent olduğunu xatırladan Stiv Deyns oradan mülki və hərbi şəxslərin təxliyəsində azərbaycanlı hərbçilərin mühüm rol oynadıqlarını vurğuladı və buna görə də ayrıca minnətdarlığını bildirib.

Senator fəaliyyəti dövründə Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin inkişafına mühüm əhəmiyyət verdiyini deyərək əlaqələrin inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu vurğulayıb. O, Azərbaycana və Mərkəzi Asiya ölkələrinə ABŞ Senatının nümayəndələri tərəfindən səfərlərin intensivləşdirilməsinin vacibliyinə toxunub.

Dövlət başçısı Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərə görə təşəkkürünü bildirərək ABŞ Prezidenti Donald Trampın bu xüsusda göndərdiyi təbrik məktubunun yüksək qiymətləndirildiyini vurğulayıb. Prezident İlham Əliyev deyib ki, məktubda da qeyd olunduğu kimi, Azərbaycanla ABŞ arasında təhlükəsizlik, enerji və iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar var. Dövlət başçısı Donald Trampın birinci prezidentliyi dövründə Azərbaycanla əlaqələrin inkişafına göstərdiyi diqqətin də təqdir olunduğunu deyib.

Görüşdə Azərbaycanın malik olduğu nəqliyyat infrastrukturu və region ölkələri ilə siyasi əlaqələri nəticəsində Avrasiya regionunun əsas logistika mərkəzlərindən birinə çevrildiyi, Orta Dəhlizin inkişafında oynadığı mühüm rolu bir daha qeyd edilib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Sonda senator Stiv Deyns Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim edib.

# Elgünün ölüm səbəbi açıqlandı - Baş Prokurorluq, DTX və DİN birgə məlumat yaydı

***Elgün Ibrahimovun ölümü ilə bağlı istintaq davam etdirilir. "Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidməti birgə məlumat yayıb.***

Bildirilib ki, mayın 13-də 2007-ci il təvəllüdlü Elgün İbrahimovun Gəncə şəhərində müalicə aldığı xəstəxanada ölməsi faktı ilə bağlı Gəncə şəhər prokurorluğunda istintaq edilən cinayət işi üzrə intensiv istintaq və əməliyyat axtarış tədbirləri həyata keçirilir.

Cinayət işi üzrə bütün fərziyyələr, o cümlədən mərhumun intihar etməsi, ehtiyatsızlıqdan yıxılması və ya ona ağır bədən xəsarəti yetirilməsi nəticəsində ölümün baş verməsi kimi hallar yoxlanılıb.

İstintaqın hazırkı mərhələsində əldə edilmiş sübutlarla yəni, şahid ifadələri, hadisə yerinə, müşahidə kameralarına baxış, meyitin xarici və daxili müayinə edilməsi, telefon məlumatları, məhkəmə-genetik, məhkəmə-tibbi və digər ekspertizaların rəyləri və başqa dəlillərlə müəyyən edilmişdir ki, Elgün İbrahimova hər hansı kənar şəxs və ya şəxslər tərəfindən xəsarət yetirilməyib, ona qarşı heç bir zorakı hərəkətlərə yol verilməyib, o, hündürlükdən yıxılmaq nəticəsində aldığı çoxsaylı xəsarətlərdən ölüb.



Həmçinin müəyyən edilib ki, Elgün İbrahimov may ayının 12-də saat 16 radələrində hazırlıq kursundan çıxdıqdan sonra mobil telefonunu sataraq ayrı-ayrı şəxslərə olan pul borcunu qaytarıb.

Bundan sonra E.İbrahimov Gəncə şəhərində yerləşən "Naxış" çay evində tanışları ilə görüşüb birlikdə spirtli içki qəbul edib, saat 19:40-da həmin yeri onlarla birgə tərk edib Abbas Səhhət adına 1 saylı şəhər xəstəxanasının qarşısına qədər gələrək orada tanışlarından ayrılıb, həmin vaxt E.İbrahimovun üzərində hər hansı xəsarət izləri müşahidə edilməyib

Daha sonra E.Ibrahimov saat 20:17-də marketdən 2 qutu siqaret alıb əvvəllər də mütəmadi olaraq vaxt keçirdiyi Gəncə şəhəri, M.Xəlefov 115 ünvanında yerləşən Texnologiya Universitetinin istifadəsiz yataqxanasına tək halda gedib, qeyd olunan yataqxananın 5-ci mərtəbəsində məhəccərsiz eyvana çıxaraq, orada bir neçə siqaret çəkmiş və eyvandan torpaqla örtülmüş sərt səthi olan həyətə yıxılaraq çoxsaylı xəsarətlər almış, saat 22:52-də ərazidə olan gözətçi tərəfindən yerdə yaralı vəziyyətdə aşkar edilərək təcili tibbi yardım avtomaşını vasitəsilə xəstəxanaya təxliyə edilib, may ayının 13-də almış olduğu xəsarətlərdən xəstəxanada ölüb.

Bir daha xatırladılır ki, istintaq aparılan dövrdə cinayət işləri üzrə məlumatların yayılması yalnız rəsmi dövlət qurumlarının təsdiqlədiyi informasiyalar əsasında həyata keçirilməli, xüsusilə cəmiyyətin həssaslıqla yanaşdığı məsələlərdə məsuliyyətli və qanunauyğun davranılmalıdır.

Mediadan, sosial şəbəkə istifadəçilərindən və ictimai fəallardan bu məsələdə yüksək həssaslıq göstərmələri, istintaqın gedişinə mane ola biləcək və cəmiyyətdə çaşqınlıq yarada biləcək informasiyaları yaymamaları xahiş olunur.



# Şahbaz Şərifin Azərbaycana səfəri başa çatdı

***Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Respublikasına səfəri mayın 29-da başa çatıb.***

"Unikal" xəbər verir ki, Laçın Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir Məhəmməd Şahbaz Şərifi Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola salıblar.

# Araz Musayevin vurulmasını sifariş edən 2 nəfər saxlanıldı - Özündən ilk açıqlama

***"Antalya şəhərində dünya çempionatı keçirilir. Azər Həsənsoy və Elşən Abdulrəhimov ezam olunmuşdular ki, burada federasiyanı məndən alsınlar. Gəldilər, burada da mümkün olmadı. Əksinə, Kikboksinq Federasiyası dünya tərəfindən mənim nəzarətimə verildi. Ondan sonra istədilər dava salsınlar, gördülər alınmır. Ondan sonra killer göndərib məni vurdular".***

Bunu "Unikal"a açıqlamasında ötən gün Antalyada bıçaqlanan Muay-Tay Federasiyasının prezidenti, 9 qat dünya çempionu Araz Musayev

O bildirib ki, Gənclər və İdman Nazirliyinin şöbə müdiri Elnur Məmmədovun Kikboks və Muay-Tay idman növündən xəbəri olmadığı üçün verdiyi qeyri-qanuni qərarlar, Dünya Muay-Tay Fedarasiyası tərəfindən Kikboksinq Federasiyası idmançılarının Muay-Tay Fedarasiyasının tərkibinə daxil edilməsi ilə nəticələndi.

A.Musayev qeyd edib ki, beşbarmaqla bir zərbə üzündən, başından və bədənindən iki yerdən bıçaqla vurublar: "Ötən gün axşam əməliyyat olunmuşam. Vəziyyətim orta-ağırdır. Bu federasiyaya dəstək verən Gənclər və İdman Nazirliyinin şöbə müdiri Elnur Məmmədovdur. Türkiyə polisi Azər Həsənsoyla Elşən Abdulrəhimovu saxlayıb. Hadisəni törədənlər Rusiyadan göndərilən adamlardır. Mən də buna hazırlıqlı idim".

Azərbaycan Kikboksinq Federasiyasından saytımıza bildirilib ki, bu hadisəni törədən şəxsləri nə Azər Həsənsoy, nə də Elşən Abdulrəhimov tanıyır.

"Federasiya olaraq Araz Musayevin vurulmasını pisləyirik", - deyə qeyd edilib.

***Anar Kəlbiyev***

# Azərbaycan Ordusunun hərbçisi minaya düşdü

***Azərbaycan Ordusunun hərbçisi Kəlbəcərdə minaya düşüb.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

"Mayın 29-da saat 10:10 radələrində Kəlbəcər rayonunun İstisu yaşayış məntəqəsi istiqamətində Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizləməsi zamanı hərbi qulluqçumuz Sadıqov Xudaverdi Həsən oğlu ermənilər tərəfindən basdırılmış piyada əleyhinə minaya düşərək sol ayağından xəsarət alıb. Dərhal ilkin tibbi yardım göstərilən hərbi qulluqçumuz ixtisaslı müayinə və müalicə olunması üçün yaxınlıqdakı hərbi hospitala təxliyə olunub", - deyə məlumatda bildirilib.

20_27 IYUI-QARA.qxd 5/29/2025 10:56 PM Page 7



# Heydər Əliyev Mərkəzinin parkında Uşaq festivalı keçiriləcək




***İyunun 1-də Heydər Əliyev Mərkəzinin parkında Uşaq festivalı keçiriləcək.***

"Unikal" xəbər verir ki, Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi və Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə baş tutacaq festivalda hər bir azyaşlı və yeniyetmə öz maraq dairəsinə uyğun əyləncə seçib, asudə vaxtını keçirə biləcək.

Uşaqların Beynəlxalq Müdafiəsi Günündə təşkil edilən festivala şəhidlik zirvəsinə yüksələn qəhrəmanlarımızın övladları, uşaq evlərinin sakinləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar da dəvət alıb.

Tədbir zamanı Heydər Əliyev Mərkəzinin parkı mövzular və əyləncə növləri üzrə zonalara bölünəcək. Burada maraqlı və fərqli əyləncələr, maarifləndirici proqramlar təqdim olunacaq. Festival çərçivəsində uşaq və gənclərin iştirakı ilə müxtəlif konsert proqramları təşkil olunacaq, gənc istedadlar öz bacarıqlarını nümayiş etdirəcək, rəqs qrupları və musiqi ansambllarının ifasında maraqlı çıxışlar olacaq, viktorinalar keçiriləcək.

"Aqrar zona"da iştirakçılara kənd təsərrüfatı və təbiət haqqında interaktiv məlumatlar veriləcək. Uşaqlar bitki həyatı, ətraf mühitə bitkilərin təsiri haqqında maarifləndirici məlumatlarla isə "Botanika zonası"nda tanış ola biləcək. Bu sahədə təcrübə qazanmaq üçün uşaqlara ustad dərsləri keçiriləcək: şitillər gətiriləcək, dibçəklərdə bitki əkmək imkanı yaradılacaq. Uşaqların heyvanlar aləminə marağı nəzərə alınaraq, festivalda "Zoopark zonası" da yaradılacaq. Builki festivala Dövlət Kukla Teatrı da dəvət olunub. Teatrın ixtiyarına verilən zonada uşaqlar üçün "Qoğal" nağılı nümayiş etdiriləcək.

Daha bir yenilik festivalda Bakı Dövlət Sirkinin iştirakıdır. Animatorlar və sirk ustaları maraqlı şou proqramlarla uşaqları sevindirəcək, akrobatlar, klounlar və sehrbazlar xüsusi nömrələr nümayiş etdirəcəklər. Festivalda "Art/Face Art" meydançasında uşaqlara müxtəlif incəsənət növləri öyrədiləcək.

Festivalın yeniliklərindən daha biri moda meydançasıdır. Bu zonada uşaqlar və gənclər peşə təhsili müəssisələri tərəfindən dizayn, floristika, moda dünyasına səyahət edəcək, öz yaradıcılıqlarını nümayiş etdirəcək və müxtəlif dizayn ideyaları ilə tanış olacaqlar. Muzey zonasında Milli Xalça Muzeyinin əməkdaşları xalça toxunması üzrə ustad dərsi keçəcəklər. Kosmos və astronomiya, həmçinin planetarium vasitəsilə ulduzlar və planetlər haqqında bilgilər əldə etmək "Azərkosmos" və "Planetarium" zonasında mümkün olacaq.

Festival çərçivəsində Azərbaycan Avtomobil Federasiyası (AAF) uşaqlar üçün Təhlükəsiz yollar/Ralli zonası təşkil edəcək. Uşaqlara kiçik avtomobillərlə ralli təcrübəsi təqdim ediləcək. Həmin gün Mərkəzin parkında "Oxu zonası" da təşkil olunacaq, burada Oxu saatı keçiriləcək. Uşaqların Beynəlxalq Müdafiəsi Günündə gələcək nəslin sağlam böyüməsinə bir daha diqqəti yönəltmək məqsədilə festivalda "Sağlam uşaqlar zonası" fəaliyyət göstərəcək. Burada uşaqların müayinəsi üçün kuponlar veriləcək, qeydiyyat aparılacaq.

Uşaqların fiziki aktivliyini artırmaq məqsədilə "Estafet zonası"nda müxtəlif yarışlar və idman oyunları keçiriləcək, attraksionlar qurulacaq. "Badminton zonası"nda maraqlı yarışlar təşkil olunacaq. Beləliklə, Heydər Əliyev Mərkəzinin parkı gün ərzində həm əyləncə, həm də yaradıcılıq məkanı kimi uşaqların tam ixtiyarına veriləcək.

# Rövşən Rzayev İsmayıllıda qəbul keçirdi

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev mayın 29-da İsmayıllı rayonunda vətəndaşları qəbul edib.***

"Unikal" xəbər verir ki, qəbulda, əsasən İsmayıllı və Ağsu rayonlarında müvəqqəti məskunlaşmış məcburi köçkünlər iştirak ediblər.

Vətəndaşların müraciətlərində, əsasən, dövlət mənzil fonduna məxsus xüsusi təyinatlı yaşayış sahələrinin verilməsi, müvəqqəti yaşayış sahələrinin təmiri, vahid aylıq müavinətin təyin edilməsi, məşğulluq, Böyük Qayıdışla və digər şəxsi xarakterli müraciətlər üstünlük təşkil edib.

Qəbul zamanı vətəndaşların qaldırdıqları məsələlərin bir qismi yerində həll olunub. Müraciətlərdə vurğulanan digər məsələlərin qısa müddətdə araşdırılacağı, həmçinin aidiyyəti üzrə dövlət qurumlarına çatdırılacağı bildirilib.

# "Bölgədə yeni geosiyasi və geohərbi konfiqurasiya formalaşıb"

## Zaur Məmmədov: "Kimlərsə Azərbaycanı hərbi yolla təhdid etmək istəyəcəksə, onlar bilsin ki, Azərbaycan, Türkiyə və Pakistan orduları birgə, adekvat olaraq cavab verəcək"

***Politoloq Zaur Məmmədov "Unikal"a müsahibə verib. O, Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsinin əhəmiyyətindən, Azərbaycan, Türkiyə Prezidentlərinin və Pakistanın Baş nazirinin Zirvə görüşündən və üç ölkə birliyinin gələcəkdə hansı yeniliklərə imza atacağından danışıb.***



***-Zaur müəllim, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Laçın Beynəlxalq Hava Limanının açılışı oldu. Bu, işğaldan azad olunmuş ərazilərimizdə istifadəyə verilən sayca 3-cü hava limanıdır. Laçın hava limanının istifadəyə verilməsinin hansı siyasi üstünlükləri olacaq?***

-Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Laçın Beynəlxalq Hava Limanının açılışı, həmçinin 28 May - Azərbaycanın Müstəqillik Günündə Laçında Azərbaycan, Türkiyə və Pakistan liderlərinin görüş keçirməsi mühüm siyasi əhəmiyyət kəsb edir. 2020-ci ilin 44 günlük Vətən müharibəsindən sonra Qarabağın dağlıq hissəsində bir sıra çağırışlar var idi. Bu çağırışların həll edilməsi ilk növbədə Laçın yolu və Laçınla bağlı məsələnin həllinə də yönəlmişdi. 30 il ərzində və ondan əvvəl SSRİ dövrünü də nəzərə alsaq, Laçınla bağlı ermənilərin istəyi bölgəni işğal etmək idi. ATƏT-in Minsk qrupunun həmsədrliyi ilə davam edən danışıqlarda hər zaman Qarabağın dağlıq hissəsinə bir başqa, Laçınla bağlı isə ayrıca istəklər var idi. Bu istəklər Laçının ermənilərin nəzarətində olmasına gətirib çıxara bilərdi. Lakin Azərbaycan rəhbərliyi tərəfindən bu istiqamətdə daim tamamilə prinsipial mövqe nümayiş etdirilirdi. Laçının Azərbaycanın ayrılmaz tərkib hissəsi olması ilə bağlı daim ATƏT-in Minsk qrupu və digərləri ilə görüşlərdə çıxışlar edilirdi. Nəticə etibarı ilə ona şahid olduq ki, 2021-2023-cü illərdə Azərbaycanı istəməyən qüvvələr, müəyyən dövlətlərdəki mərkəzlər tərəfindən məhz Laçın yolu vasitəsilə separatçılara hərbi texnikalar və digər resurslar göndərilirdi. Eyni zamanda, onun şahidi olduq ki, ermənilər Laçın yolu vasitəsilə Azərbaycanın faydalı zəngin təbii resurslarını Ermənistana göndərməklə məşğul idilər. Bu məsələnin vaxtında həll edilməsi, daha sonra antiterror tədbirləri ona gətirib çıxardı ki, Azərbaycanın bütün ərazilərində suverenlik təmin edildi. Bu il Müstəqillik Gününün Laçında qeyd edilməsi heç də sıradan hadisə deyil. Bu, bütün dünyaya göstərdi ki, bundan sonra kimlərdəsə hansısa ərazilərimizlə bağlı iddia olarsa, bu onların xeyrinə yox, zərərinə olacaq.

***-Laçında Prezident İlham Əliyevin, Prezident Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Zirvə görüşü keçirilib. Burada liderlərin mühüm açıqlamaları oldu. Laçından dünyaya hansı mesajlar verildi?***

-Laçından dünyaya verilən mesajlar ondan ibarət idi ki, Qarabağ, Laçın Azərbaycandır! Ümumiyyətlə, Azərbaycanın nəinki bu istiqamətdəki bölgəsi ilə bağlı, bütün sərhədləri, təhlükəsizliyi ilə bağlı iddialar etmək olmaz. Əgər, regional və dünya gücləri yenidən birləşərək Azərbaycana qarşı hansısa addımlar atmaq istəsələr, onlar unutmasınlar ki, Türkiyə və Pakistan Azərbaycanın yanındadır. Türkiyə və Azərbaycan arasında Şuşa Bəyənnaməsi imzalanıb. Şuşa Bəyənnaməsi açıq şəkildə qeyd edir ki, əgər, Azərbaycan ərazisinə təhdid olarsa, Türkiyə və Azərbaycan Ordusu bir yerdə döyüşəcək. Bu yaxınlarda Pakistan Hindistanın gözlənilməz hücumuna adekvat cavab verdi. Pakistanın Hindistan ordusunu necə darmadağın etdiyi hər kəsə məlumdur. Hərbçilərin sayı və texnika baxımından Pakistan dünyanın ən inkişaf etmiş orduları sırasındadır. Bu baxımdan, kimlərsə Azərbaycanı hərbi yolla təhdid etmək istəyəcəksə, onlar bilsin ki, Azərbaycan, Türkiyə və Pakistan orduları birgə, adekvat olaraq cavab verəcək. Azərbaycan, Türkiyə və Pakistan ordularının mütəmadi olaraq hərbi təlimlər keçməsi də bunun bariz nümunəsidir.

***-Azərbaycan, Türkiyə və Pakistan birliyinin gələcəkdə hansı yeniliklərə imza atacağı gözlənilir?***

-Laçında keçirilən görüşün nəticəsi ondan ibarətdir ki, bölgədə yeni geosiyasi və geohərbi konfiqurasiya formalaşıb. Bəzi region ölkələrinin iştirakı ilə olan təhlükəsizlik sistemi yeni təhlükəsizlik sistemi ilə əvəz olunub. Bu təhlükəsizlik sistemi sözsüz ki, Azərbaycan və Türkiyə ilə dost olmaq istəyən, yanımızda olan ölkələrin birliyindən asılı olaraq üçlüyün sayı daha da genişlənsin. Və Avrasiyanın orta xəttində Azərbaycanın dostlarından ibarət böyük hərbi təhlükəsizlik şəbəkəsini görmüş olacağıq.

***Anar Kəlbiyev***

# Ziya Məmmədovun da adı hallanan qalmaqalda gözlənilməz qərar

## "Bombardier" şirkəti ilə bağlı aparılan korrupsiya istintaqının dayandırılması ilə bağlı ilginc iddialar dolaşır

***ABŞ Ədliyyə Nazirliyi Kanadanın "Bombardier" şirkəti ilə bağlı aparılan korrupsiya istintaqını dayandırıb. Sözügedən araşdırma çərçivəsində Azərbaycanın keçmiş nəqliyyat naziri Ziya Məmmədov və onun müavini, "Azərbaycan Dəmir Yolları" QSC-nin sabiq rəhbəri Arif Əsgərovun adları hallanırdı.***

Haqqın.az-ın yazdığına görə, "Bombardier" şirkəti 1 aprel tarixində ABŞ Ədliyyə Nazirliyindən rəsmi məktub alaraq, istintaqın bağlandığını təsdiqləyib. Kanada şirkətinin maliyyə hesabatında qeyd olunur ki, "İndoneziya və Azərbaycan dəmir yolları ilə bağlı müqavilələrlə əlaqəli iki istintaq toplanmış məlumatlar əsasında yekunlaşdırılıb".



ABŞ Ədliyyə Nazirliyi məsələ ilə bağlı əlavə şərh verməkdən imtina edib. "Bombardier" şirkəti də açıqlama yaymayıb.

Qeyd edək ki, 2020-ci ildə Azərbaycanla, 2021-ci ildə isə İndoneziyanın "Garuda Airlines" şirkəti ilə bağlanmış müqavilələr üzrə istintaq başladılmışdı. Bu çərçivədə Azərbaycanın Nəqliyyat Nazirliyi ilə "Bombardier" arasında 2013-cü ildə imzalanmış 350 milyon dollarlıq müqavilə də araşdırılmışdı. Müqavilə Bakı-Qazax-Böyük Kəsik dəmir yolu xətti üçün siqnal avadanlıqlarının alınmasını nəzərdə tuturdu.

İstintaq zamanı məlum olub ki, təxminən 100 milyon dollar vəsait yüksək vəzifəli məmurlara rüşvət kimi ödənilib. Rüşvətlərin ötürülməsi üçün offşor vasitəçi - "Multiserv Overseas Ltd" şirkətindən istifadə olunub. Bu şirkət Rusiyanın sabiq dəmiryolu rəhbəri Vladimir Yakunin tərəfindən təsis edilib və müxtəlif ölkələrdə "Bombardier" layihələrinə vasitəçilik edib.

Sənədlərdə göstərilir ki, 46 ədəd siqnal qurğusu Azərbaycana göndərilib, lakin ödənişlər heç bir ünvanı və fəaliyyəti olmayan London mənşəli şirkət vasitəsilə həyata keçirilib. Avadanlıqlar real qiymətindən 5,5 dəfə baha qiymətə satılıb.

İsveçdə bu işlə bağlı cinayət işi başlanıb və "Bombardier"in vitse-prezidenti Tomas Bimer məhkəməyə verilib. 2021-ci ilin dekabrında Stokholm məhkəməsi onu bəraət qazandıraraq, korrupsiya sxemindən xəbərsiz olduğuna qərar verib.

Qeyd edək ki, bu iş üzrə Dünya Bankı tərəfindən başlanan araşdırma hələ də davam edir. Eyni zamanda Kanadanın hüquq-mühafizə orqanları "Bombardier"in İndoneziya ilə imzaladığı təyyarə satışı müqaviləsi üzrə yoxlamaları davam etdirir.

Maraqlıdır ki, 2021-ci ildə ABŞ Prezidenti Donald Tramp tərəfindən ölkənin əsas antikorrupsiya qanunu - Xaricdə Korrupsiya ilə Mübarizə Aktının (FCPA) tətbiqinin dayandırılması barədə sərəncam imzalamışdı. Hazırkı qərarın həmin sərəncamla əlaqəli olub-olmadığı isə rəsmi şəkildə təsdiqlənməyib.

Donald Trampla Ziya Məmmədovun oğlu Anar Məmmədovun biznes əlaqələri sirr deyil. A.Məmmədovun Trampla işbirliyinin olması haqda Azərbaycan mətbuatında dəfələrə məlumatlar dərc olunub. Onlar Bakının Xətai rayonu ərazisində "Trump Tower" adlı böyük bir plaza da inşa etdirmişdi. Hətta bir ara Trampın milyarder iş adamı olaraq, Bakıya gələcəyi söz-söhbəti də yayılmışdı.

Bundan başqa, Trampın 2017-ci ildəki inaqurasiya mərasiminə Anar Məmmədovun da qatılacağı deyilirdi. Lakin sonradan andiçmə tədbirində onun iştirak etmədiyi məlum oldu. Belə görünürdü ki, nazir oğlu sözügedən məclisə dəvət almayıb, ümumiyyətlə o, Tramp ailəsi ilə yaxınlığını sadəcə şişirdir. Bunun sabiq nazir oğlunun nəyinə lazım olduğu isə məlum deyildi.

Hər bir halda Tramp birinci dəfə ABŞ prezidenti seçiləndən sonra daha da fəallaşan Anar Məmmədov Azərbaycan mediası vasitəsi ilə belə bir rəy yaratmağa başladı ki, Amerikanın yeni prezidenti onun və ailəsinin iş ortağıdır, yaxın münasibətləri var və dünyanın ən güclü ölkəsinin rəhbəri onun arxasında olacaq. Ancaq hər şey əksinə oldu, "Trump Tower Baku" "əl dəyişdi", adı da dəyişdi, Anar Məmmədov isə ölkədən köçdü.

Ötən ilin sentyabrında "Yeni Müsavat" yazmışdı ki, iddialara görə, A.Məmmədov Trampın sonuncu seçki kampaniyasına yüklü miqdarda ianə verib. Ola bilər ki, seçkilərdə Trampa "maya qoyması" rəsmi Bakının respublikaçı namizədin yenidən hakimiyyətə gəlməsinə isti baxması ilə əlaqədardır. A.Məmmədov bir neçə milyondan vaz keçməklə həm Trampın, həm də Bakının rəğbətini qazanmağa çalışır.

Bütün bunların fonunda ABŞ Ədliyyə Nazirliyi tərəfindən Kanadanın "Bombardier" şirkəti ilə bağlı aparılan və Ziya Məmmədovun da adı hallanan korrupsiya istintaqının dayandırılması diqqət çəkməyə bilməz.

***Toğrul Əliyev***

# Əli Nur Fizuli Hüseynovu polisə verdi

***Xalq artisti Əli Nur Əməkdar artist Fizuli Hüseynovu polisə şikayət edib.***



"Unikal" xəbər verir ki, bu haqda aktyor özü məlumat yayıb. O bildirib ki, bir müddət əvvəl F.Hüseynovun ona hücum etməsi ilə bağlı polisə müraciət edib:

"Fizuli Hüseynov mənə qarşı aqressiv davranış sərgilədi və xoşagəlməz insidentin baş verməsinə səbəb oldu. Hadisə baş verən andan dərhal sonra məsələ ilə bağlı hüquq-mühafizə orqanlarına, prokurorluğa rəsmi şəkildə müraciət etdim. Hazırda Fizuli Hüseynovun törətdiyi cinayət işi ilə bağlı prokurorluqda istintaq gedir. Teatrımızın nüfuzuna xələl gəlməməsi üçün hadisəni ictimaiyyətə açıqlamadım və mətbuatda inkar etməyə üstünlük verdim. Düşünürdüm ki, teatr rəhbərliyi məsələni obyektiv qiymətləndirəcək və müvafiq intizam tədbirləri görüləcək. Təəssüf ki, gözləntilərim doğrulmadı. Hadisə nəinki araşdırılmadı, əksinə, üstü ört-basdır edildi. Fizuli Hüseynova nə şiddətli töhmət verildi, nə işdən azad olundu, nə də Bədii Şuranın üzvlüyündən uzaqlaşdırıldı. O, sanki heç nə olmamış kimi fəaliyyətini davam etdirir.

Ailə üzvlərim bu məsələdə haqlı olaraq narahatdırlar. Onlar teatr rəhbərliyindən Fizuli Hüseynovun cəzalandırılmasını və ədalətin bərpa olunmasını gözləyirlər. Əminəm ki, Fizuli Hüseynov törətdiyi əmələ görə qanun qarşısında layiqli cəzasını alacaq".

# Mərkəzi Bank iki şirkətə icrası məcburi göstəriş verdi




***Azərbaycan Mərkəzi Bankı (AMB) "CPM-İnvest İnvestisiya Şirkəti" QSC və "Troni İnvestisiya Şirkəti" QSC-yə icrası məcburi göstəriş verib.***

"Unikal" xəbər verir ki, bu barədə AMB-dən bildirilib.

Məlumata görə, AMB tərəfindən aparılmış tematik yoxlamalar çərçivəsində "CPM-İnvest İnvestisiya Şirkəti" QSC və "Troni İnvestisiya Şirkəti" QSC tərəfindən "İnvestisiya şirkətlərində korporativ idarəetmə Standartları"nın tələblərinə tam əməl edilmədiyinə görə İnvestisiya şirkətlərinə xəbərdarlıq edilib və pozuntuların ən qısa zamanda aradan qaldırılması üçün icrası məcburi göstəriş verilib.

# Bakıda ticarət dövriyyəsinin həcmi artıb

***Cari ilin yanvar-mart aylarında Bakıda ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisə 4,6 faiz artaraq 8 milyard 483,3 milyon manat olub.***



"Unikal" Bakı Şəhər Statistika İdarəsinə istinadla xəbər verir ki, ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz artaraq 4 milyard 782,3 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 10,6 faiz artaraq 3 milyard 701 milyon manata bərabər olub.

İstehlak məhsullarının 37,4 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 52,2 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 10,4 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.



## "Ermənilər qadağan olunmuş mərmilərdən istifadə edirdilər" - Məhkəmə işi

***Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində ifadə verən zərərçəkmiş şəxs Elmir Abbasov hərbçi kimi xidmət etdiyi Tərtər rayonunda 2016-cı ildə baş vermiş Aprel döyüşləri zamanı yaralandığını bildirib.***

"Unikal" xəbər verir ki, o, 2016-cı ilin aprel ayının 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin təxribat törətdiyini, atəş açdığını söyləyib və deyib: "Bilirsiniz ki, döyüş və müharibə qanunlarına görə, hərbi bölmə yalnız hərbi bölmə ilə vuruşmalıdır. Amma onlar kəndlərə, dinc əhalinin yaşadığı ərazilərə qadağan edilmiş mərmilər atırdılar, zəhərli, yandırıcı mərmilər atırdılar. Yəni, Ermənistan silahlı qüvvələri qadağan olunmuş mərmilərdən kütləvi şəkildə istifadə edirdilər.

"Şrapnel tipli" adlandırdığımız mərmilərin tərkibində çuqun qəlpələrdən əlavə, bir mərminin içərisində 2 mindən çox iynə yerləşdirilir. Bu, elə iynələrdir ki, onların birinin insana dəyməsi belə kütləvi zəhərlənməyə səbəb ola bilər. Bizə keçirilən təlimlər zamanı videogörüntülər vasitəsilə izah edilib ki, həmin iynələrə dəriyə batmadan, sadəcə əl ilə toxunmaq belə insan orqanizminə təsir göstərir və zəhərlənməyə səbəb olur".

Zərərçəkmiş şəxs dövlət ittihamını müdafiə edən prokurorların, zərərçəkmişlərin vəkillərinin, müdafiə tərəfinin, o cümlədən təqsirləndirilən şəxslərin suallarını cavablandırıb. Təqsirləndirilən şəxs Levon Mnatsakanyan sual verən zaman əvvəlcə Aprel döyüşlərində iştirak etdiyini bildirib və deyib: "Mən 2016-cı ildə keçirilən əməliyyatlarda iştirak etmişəm və "ordu komandiri" olmuşam. Düzünü desəm, təqdim olunanların baş verdiyini ilk dəfədir eşidirəm".

O, hadisə zamanı E.Abbasovun hansı hərbi vəzifəni tutduğunu və rütbəsini soruşub. Zərərçəkmiş şəxs həmin vaxt artilleriya divizionunda batareya komandiri olduğunu, kapitan rütbəsində xidmət etdiyini deyib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

## Təkrar ali təhsil üzrə sənəd qəbuluna başlanıldı



***2025-2026-cı tədris ili üçün əlavə təhsilin təkrar ali və orta ixtisas təhsili istiqaməti üzrə elektron sənəd qəbuluna başlanılıb.***

Bu barədə Elm və Təhsil Nazirliyi məlumat yayıb. Bildirilib ki, sənəd qəbulu portal.edu.az üzərindən aparılır.

"Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"nə qoşulmuş ali və orta ixtisas təhsil müəssisələrində təkrar ali və ya orta ixtisas təhsili üçün müraciət etmək istəyənlər www.portal.edu.az vasitəsilə sənədlərini elektron formada təqdim edə bilərlər.

Portal vasitəsilə müraciətin cari statusu, müsahibə və imtahanlara dair məlumatlar əldə etmək, eləcə də təhsil haqqını ödəmək mümkündür.

# Azərbaycanda məşhur obyektlər "əl dəyişdirir"

## Milyonlarla manatlıq dəyəri olan istirahət mərkəzləri niyə satışa çıxarılır?

***Qəbələ rayonunun Vəndam qəsəbəsində yerləşən Duyma Hotel İstirahət və Sağlamlıq Mərkəzi fəaliyyətini dayandırıb. İqtisadiyyat.az-ın əldə etdiyi məlumata görə, hotel hazırda satışa çıxarılıb.***

Altı hektar sahəyə malik olan istirahət mərkəzinin ərazisində 38 otaqdan ibarət üç mərtəbəli hotel binası mövcuddur.

İaşə müəssisəsinin bağlanması və satışa çıxarılmasının səbəbi açıqlanmayıb. Sahibinin adı açıqlanmayan hotel alıcılara 6 milyon dollara təklif olunur.

"Unikal"ın araşdırması zamanı son aylarda bir neçə məşhur istirahət mərkəzinin də satışa çıxarıldığı aydınlaşıb. Məsələn, ötən ayın sonlarında Şamaxı rayonunun Avaxıl kəndində yerləşən "Qızıldaş" istirahət mərkəzi açıq hərrac vasitəsilə satışa təqdim edilmişdi. Bildirilirdi ki, istirahət mərkəzinin ümumi sahəsi 570,7 kvadratmetrdir. Bu obyekt üçün təklif olunan ilkin satış qiyməti isə 877 min manatdır. Satış icra məmurlarının təşəbbüsü ilə həyata keçirildiyindən adı çəkilən obyektin məhkəmə qərarı ilə "əl dəyişdirdiyi" məlum olurdu.

Bir həftə öncə isə dələduzluq və digər cinayət əməllərində təqsirləndirilənlər "Təbriz" MTK-nın rəhbəri Nofəl Hacıyev və şirkətin icraçı direktoru Talış Məmmədovun cinayət işi üzrə məhkəmə baxışında "Atlant" istirahət mərkəzinin satışı gündəmə gəlib. "Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Şəlalə Həsənovanın sədrliyi ilə keçirilən iclasda müdafiə tərəfləri cavabdeh olan MTK-nın balansında olan bütün daşınmaz əmlakların siyahıya alınaraq üzərlərinə həbs qoyulması ilə bağlı vəsatət təqdim ediblər. Prosesdə iştirak edən zərərçəkənlər də vəsatəti müdafiə edərək məhkəmədən onun təmin olunmasını, cinayət yolu ilə əldə edilmiş əmlakların satılaraq dəymiş zərərlərin ödənilməsinə yönləndirilməsini istəyiblər. Hazırda əsas mübahisə predmeti "Atlant" istirahət mərkəzinin rəhbəri Tahir Qədəşovun baş verənlərə görə cavabdeh olduğu məsuliyyətdən kənarda qalmasıdır. Vəkillər və müdafiəçilərin əsas tələbi "Atlant" istirahət mərkəzinə qoyulmuş həbsin götürülərək satılıb zərərçəkənlərə ödənilməsidir. Prosesdə eyni mənzilin satıldığı iki zərərçəkən ifadə verərək bildiriblər ki, müqavilələrdən biri 2018-ci il, digəri isə 2019-cu ildə bağlanılıb. Təqsirləndirilən Nofəl Hacıyev isə eyni mənzilin hər iki sahibini tanımadığını deyib.

Sərbəst ifadə verən şahidlərdən biri "Təbriz" MTK-nı mişar daşı ilə təmin edən daş karxanasının sahibi olub. İfadəsi zamanı Tahir Qədəşovla qonşu olduğunu, kürəkəni Nofəl Hacıyevi də onun işlərini həyata keçirən şəxs kimi tanıdığını deyib: "Məndən 50 min ədəddən artıq mişar daşı alıblar. Həmin daşlar bildiyim qədərilə həm digər obyektlər, həm də "Atlant" istirahət mərkəzindəki tikinti işləri üçün aparılırdı".

İstintaq materiallarında yazılıb ki, Nofəl Hacıyev 2018-2022-ci illər ərzində "Təbriz" MTK-nın Nərimanov rayonu ərazisindəki tikilmiş binasından bir mənzili bir neçə nəfərə satıb. Nəticədə 172 vətəndaşın 14 milyon manat pulu dələduzluq yolu ilə ələ keçirilib.

Xatırladaq ki, Nofəl Hacıyev "Atlant" istirahət mərkəzinin rəhbəri Tahir Qədəşovun kürəkəni, eyni zamanda istirahət mərkəzinin şərikidir. İttihama görə, o, vətəndaşlardan alınan 14 milyon manatı "Atlant"ın təmir-tikinti işlərinə yatırıb.

Onu da qeyd edək ki, məhkəmə istintaqı ilə əlaqədər "Təbriz" MTK-nın Nərimanov rayonu ərazisində sözügedən yaşayış binası və Nabran qəsəbəsində, dəniz sahilində yerləşən "Atlant" istirahət mərkəzinə həbs qoyulub.

Fevral ayında isə alqı-satqı saytlarında Nabran ərazisindəki bir istirahət mərkəzinin 2 milyon manata satışa çıxarıldığına dair elan yerləşdirilib. Elandan məlum olurdu ki, həmin obyekt Xudat rayonunun Tel kəndində yerləşir. 3 hektarlıq səhəni əhatə edən istirahət mərkəzində 19 kottecin, restoranın, çox sayda "besedka"nın olduğu bildirilirdi. O da vurğulanırdı ki, sözügedən obyekt Nabrandakı 10 iri istirahət mərkəzindən biridir.

Bu yaxınlarda Pirallahıdakı bir istirahət mərkəzi də satışa çıxarılmışdı. Sahəsi 2,5 ha və 16 ədəd ikimərtəbəli kotteci, bundan başqa, öz restoranı və çimərliyi olan obyektə 4 milyon manat qiymət qoyulmuşdu. Elanda sözügedən istirahət mərkəzinin aylıq 20 000 AZN-ə icarəyə veriləcəyi də vurğulanırdı.



O da maraqlıdır ki, yay turizm mövsümünə az qaldığı bir vaxtda bir çox istirahət zonasının satışa çıxarılması xüsusilə maraq doğurur.

Xatırladaq ki, bu ilin ilk rübündə Azərbaycana gələn turistlərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1.1 faiz azalaraq 508 min nəfər olub. Ötən ilin eyni dövrü ilə müqayisədə İsraildən gələnlərin sayı 4 dəfə, Tacikistandan - 2 dəfə, Çindən - 1,8 dəfə, İordaniyadan - 1,6 dəfə, İspaniyadan - 1,6 dəfə, Hindistandan - 47,6 faiz, Qırğızıstandan - 32,6 faiz, Yaponiyadan - 26,5 faiz, Misirdən - 25,0 faiz, ABŞ-dan - 17,3 faiz, Kanadadan - 15,2 faiz, Niderlanddan - 12,2 faiz, Pakistandan - 11,5 faiz artsa da, Avropa İttifaqından gələnlərin sayı 7.8 faiz, körfəz ölkələrindən gələnlərin sayı 9,3 faiz, MDB dövlətlərindən gələnlərin sayı 10.7 faiz azalıb.

Milli Məclisin deputatı Vüqar Bayramov bir müddət öncə "facebook" hesabında yazıb ki, 3 əsas istiqamət üzrə Azərbaycana gələn turistlərin sayında azalma qeydə alınıb: "Azərbaycan üçün gəlmə turizmdə əsas regionlardan olan körfəz ölkələrindən və eləcə də, MDB dövlətlərindən gələnlərin sayının azalması ümumi turistlərin sayına mənfi təsir göstərib. Nəticədə, bu ilin ilk rübünü gəlmə turizm azalma ilə başa vurub".

"Son statistika göstərir ki, gəlmə turizmdə yeni regionların payının artırılması, dayanıqlı turizm məhsullarından istifadə olunması və davamlılığın gücləndirilməsi üçün bu sahədə islahatların dərinləşdirilməsi daha da aktuallaşıb", - deyə V.Bayramov əlavə etmişdi.

***Sənan Mirzə***

20_27 IYUl-QARA.qxd 5/29/2025 10:56 PM Page 10



# Nazim İbrahimovun qardaşının başı böyük dərddə

## Hacı İbrahimə məxsus şirkətin 700 min manatdan çox vergi borcu var - İbrahimovların vəziyyəti getdikcə ağırlaşır

***Diasporla İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovun qardaşı, iş adamı İbrahim İbrahimova məxsus ”Avesta Konserni” şirkətinin xüsusilə külli miqdarda vergi borcu yaranıb. “Qaynarinfo” xəbər verir ki, şirkətin vergi borcu hazırda 703 985,46 manat təşkil edir.***

”Avesta Konserni” 2008-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 10 320 manatdır. 2021-ci ilə qədər şirkətin qanuni təmsilçisi İbrahim İbrahimovun özü olub. Hazırda isə ”Avesta Konserni”nin qanuni təmsilçisi Araz Nadirovdu.



Mediada tirajlanan məlumatlara görə, Araz Nadirov İbrahim İbrahimova yaxın şəxsdir.

İbrahim İbrahimov Hacı İbrahim Nehrəmli kimi tanınır. O, ”Xəzər adaları” layihəsinin müəllifidir. 2015-ci ildə Azərbaycan Beynəlxalq Bankı (ABB) ilə bağlı kredit qalmaqalından sonra Hacı İbrahimin ulduzu sönməyə başlayıb. Onun da ABB-yə külli miqdarda vergi borcu olub. Kredit ”Xəzər adaları” layihəsinin icrası üçün götürülüb. Lakin ”kredit qalmaqalı” zamanı Hacı İbrahimdən götürdüyü pulların qaytarılması tələb edilib.

Bu hadisədən sonra ”Xəzər adaları” layihəsi də dayanıb.

Xatırladaq ki, bu ayın əvvəllərində Hacı İbrahim Nehrəmliyə məxsus olan, Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti, Məmməd Araz küçəsi 109 ünvanında yerləşən “Avesta Konserni” kimi tanınan hündürmərtəbəli qeyri-yaşayış binasının 14 milyon manata Azərbaycanın sabiq hərbi prokuroru, Konstitusiya Məhkəməsinin hakimi Xanlar Vəliyevin oğlu Elşən Vəliyevə satılması barədə xəbərlər yayılmışdı. Məlumata görə, hazırda Elşən Vəliyev sözügedən binada ofislərin təhvil-təslimi işinə rəhbərlik edir. O, ixtisasca hüquqşünasdır, Ukraynadakı Azərbaycan Ticarət Evinin təsisçisidir. Binanın yeni səhmdarlarından digər birinin isə dubaylı bir iş adamı olduğu deyilirdi.

Hacı İbrahim isə sözügedən binanı satması barədə xəbərlərə ilginc münasibət bildirmişdi. O, demokrat.az-a açıqlamasında demişdi ki, bina hələlik satılmayıb: “Mənim binam Xanlar Vəliyevin nəyinə lazımdır? Məgər Xanlar Vəliyev bina alandır? Biz Dubaylı bir iş adamı ilə anlaşmışıq, amma sənədləşmə hələ olmayıb. Yəqin ki, bu yaxınlarda satacağıq. Dubaylı iş adamı gəlib binaya baxıb. Amma hələ ortada bir şey yoxdur. Qiyməti də 14 milyon manatdan aşağı razılaşmışıq. Hamı almaq istəyir, amma ortada bir şey yoxdur. Bəlkə, gələn aya satıldı. O zaman zəng edərsiniz, kimin aldığını sizə dəqiq deyərəm. Bir daha deyirəm, dediyiniz şəxslə bu məsələnin əlaqəsi yoxdur”.

Ümumiyyətlə, son vaxtlar başda sabiq komitə sədri Nazim İbrahimov olmaqla İbrahimov qardaşlarının işləri qaydasında getmir. Əvvəla, onun iki qardaşı hazırda həbsdədir. Onlardan biri ATV kanalının keçmiş prezidenti Tağı İbrahimov, digəri isə inşaat biznesi ilə məşğul olan Sahib İbrahimovdur.

Tağı İbrahimov ”Bakı Ağac Emalı” ASC-də 10 nəfərin ölümü ilə nəticələnən yanğın hadisəsinə görə, Sahib İbrahimov isə dələduzluq və vəzifə saxtakarlığına görə həbs edilib.

N.İbrahimovla İbrahim Nehrəmlinin isə biznes işləri qaydasında deyil. Keçmiş komitə sədrinin xüsusilə Ukraynadakı biznesi bu ölkədə gedən savaş səbəbilə ağır günlərini yaşayır.

Xatırladaq ki, keçmiş “diaspor şefinin” Ukraynada böyük biznes şəbəkəsinə sahib olması heç kəsə sirr deyil. O, öz biznesini hələ Ukraynada səfir olarkən yaratmağa başlayıb. Sonrakı illərdə isə şəbəkəni genişləndirərək, nəhəng maliyyə imperiyası qurmağa müvəffəq olub. Bu imperiyaya, ticarət mərkəzləri, müxtəlif profilli mağazalar, otellər və restoranlar daxildir. Sabiq sədrin bu ölkədəki evlərinin sayı da barmaqla sayılası qədər deyil. Onun Ukraynada geniş torpaq sahələrinə də sahibləndiyinə dair məlumatlar var. Biznes şəbəkəsi isə təkcə paytaxt Kiyevi deyil, Ukraynanın ayrı-ayrı bölgələrini də əhatə edir. Məlumatlarda İbrahimovun Diasporla İş üzrə Dövlət Komitəsinə rəhbərlik etdiyi dövr, onun Ukraynadakı biznesinin çiçəklənmə dövrü kimi qiymətləndirilir. Lakin adı çəkilən ölkədə savaşın başlamasının ardından keçmiş komitə sədrinin oradakı biznesi böhranlı dövrə qədəm qoyub, hətta Nazim müəllimin vəziyyətdən çıxış yolları axtardığı, Ukraynadakı biznesini Avropaya daşımaq istədiyi, hələlik buna nail ola bilmədiyi deyilir.

Bundan başqa, üç il öncə N.İbrahimovun kredit borclarının olduğu və onun həmin borcları ödəməkdə çətinlik çəkdiyi bildirilirdi.

İbrahim Nehrəmlinin adı isə mütəmadi olaraq külli miqdarda kredit və vergi borcları səbəbindən gündəmə gəlir. Son olaraq ona məxsus olan ”Avesta Konserni” şirkətinin hazırda 703 985,46 manat vergi borcunun yarandığı barədə yayılmış xəbər Hacı İbrahimin biznes sarıdan uğursuzluqlar yaşadığını təsdiqləyir.

***Sənan Mirzə***

# Zeynəb Xanlarovanın adından dələduzluq



***Xalq artisti Zeynəb Xanlarovanın adından dələduzluq edilib.***

”Unikal” xəbər verir ki, bu barədə müğənninin instaqram səhifəsində məlumat paylaşılıb. Bildirilib ki, Z.Xanlarovanın adından saxta profillər açılıb:

”Nəzərinizə çatdırmaq istəyirik ki, Zeynəb Xanlarova heç bir sosial şəbəkədən istifadə etmir. Onun adına açılmış bütün səhifələr pərəstişkarları tərəfindən, sənətkara qarşı olan sevgilərini bildirmək məqsədi ilə fəaliyyət göstərir. Həmçinin ”@zeynebxanlarovamusic” səhifəsi də pərəstişkarı tərəfindən idarə olunur. Səhifəmizdə olan paylaşımları Zeynəb xanımın adından və rəsmi səhifə olaraq, ictimaiyyətə təqdim etməyin. Zeynəb Xanlarovanın adından saxta konsert verəcəyi xəbəri yayılıb. Bilet satışı ilə dolandırıcılıq etməyə çalışırlar. Xahiş edirik, bu cür mesajlara və bilet satışlarına inanmayın. Rəsmi konsert xəbərləri yalnız müğənninin etibarlı və rəsmi kanalları vasitəsi ilə paylaşılır. Aldanmayın, diqqətli olun”.

# Ermənilər Kərkicahanda tarixi belə saxtalaşdırıblar



***“İşğal dövründə Xankəndinin ən hündür nöqtəsi - Kərkicahan qəsəbəsinin Yağlıtəpə yüksəkliyində nəhəng bir kompleks tikilib. Əgər xatırlayırsınızsa, 6-7 il bundan əvvəl erməni KİV-ləri də separatçıların başçısı Bako Saakyanın həmin kompleksi ziyarət etməsinin xəbəri və görüntülərini yayılmışdı”.***

Bunu Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Afət Telmanqızı bildirib.

Onun sözlərinə görə, həmin vaxtlar ermənilər bununla Xankəndinin guya tarixi erməni torpaqları olduğunu göstərmək istəmişdilər.

“Beynəlxalq ictimai rəyi, həm də daxili ictimai şüuru çaşdırmaq üçün yalançı tarixi abidələr inşa edən ermənilər, xaç şəkilli kompleksdə görün nələr ediblər? Kərkicahanda ermənilər tarixi necə saxtalaşdırıblar? Bu kompleks Xankəndinin ən yüksək nöqtəsindədir. Kənardan böyük modern tipli kompleks kimi görünən bu yer içəridən bir mağaradır. Kərkicahandakı bu süni mağarada erməni mifologiyasının dırnaqarası tanrıları təsvir olunub. Amma bu fiqurlar sadəcə mif deyil, siyasi mesaj daşıyan obrazlardır. Mağaradakı abidə, şəkillər estetik bəzək deyil. Qanadlı şir, qartal fiquru, daşlara həkk olunmuş silah-sursat, hərbi texnika, girişdəki kök atmış ağac təsviri və digər müxtəlif obrazlar ermənilərin bizim kökümüz buradır, ilkimiz buradır - Qarabağdır kimi saxta, yalançı tarixi, real olmayan faktlara əsaslandırmaq cəhdidir. Bunlar uydurulmuş ilklik iddiasını gücləndirmək üçün yaradılıb. Bütün bunlar bir daha göstərir ki, ermənilər həmişə saxta tarix yazmaq üçün çalışıb və bununla beynəlxalq dəstək qazanmaq istəyiblər”, - A.Telmanqızı vurğulayıb.

# Nazir: “Minimum əməkhaqqı, sosial müavinət və təqaüdlər artıb”



***Son illərdə Azərbaycanda beş böyük sosial islahat paketi həyata keçirilib, minimum əməkhaqqı, sosial müavinət və təqaüdlərin həcmi artıb.***

“Unikal” xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev mayın 29-da Bakıda ”Müasir dünyanın çağırışları kontekstində sosial müdafiə sistemlərinin uyğunlaşdırılması” mövzusunda keçirilən beynəlxalq konfransda deyib.

O bildirib ki, cari ildə icrasına başlanılmış yeni islahat paketi 3 milyon nəfəri əhatə edir.

”Şəhid ailələri və müharibə əlillərinin sosial müdafiəsi daim diqqət mərkəzində saxlanılır”, - deyə nazir əlavə edib.

## 2025-ci ilin 3 ayında Ağdaşın istehsal və xidmət sahələri üzrə əsas göstəriciləri

***2024-cü ilin yanvar-mart aylarında Ağdaş rayonunda istehsal olunmuş məhsul və xidmətlərin 66,0 faizi istehsal sahələrinin, 34,0 faizi isə xidmət sahələrinin payına düşmüşdür.***

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatlarında 27 milyon 937,9 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 27 milyon 920,1 min manatı heyvandarlığın, 17,8 min manatı isə bitkiçiliyin məhsullarının payına düşmüşdür. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsulları istehsalı müqayisəli qiymətlərlə 1,0 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 1,1 faiz azalmış, bitkiçilik məhsulları üzrə isə faiz 2,0 dəfə artmışdır.

2025-ci ilin yanvar-mart aylarında rayonunda sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 21 milyon 623,5 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 12,6 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 80,1 faizi emal, 17,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 2,2 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

2025-ci ilin yanvar-mart aylarında rayonda 1 milyon 428,8 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmiş, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 88,4 faiz azdır. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 99,7 faiz azalmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 0,1 faiz artmışdır.

Rayonda ticarət, nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 26 milyon 217,2 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sabit qiymətlərlə 0,7 faiz və ya 1 milyon 235,6 min manat çoxdur. İstehsal olunmuş xidmətlərin 24 milyon 644,6 min manatı və ya 94,0 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində, 1 milyon 529,2 min manatı və ya 5,8 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 43,4 min manatı və ya 0,2 faizi informasiya və rabitə sahəsində olmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

## İctimai iaşə xidmətlərinin statistikası

***2025-ci ilin yanvar-mart aylarında ictimai iaşə dövriyyəsi 2024-cü ilin eyni dövrü ilə müqayisədə real ifadədə 13,1 faiz artaraq 2016,8 min manat təşkil etmişdir.***

Hüquqi şəxslər tərəfindən 473,9 min manat, hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 1542,9 min manat xidmətlər göstərilmiş və xidmətlərin ümumi həcmində onların xüsusi çəkisi müvafiq olaraq 23,5 və 76,5 faiz təşkil etmişdir.

***Ucar Rayon Statistika idarəsinin baş məsləhətçisi Tural Əzizli***

## Demoqrafik vəziyyətin göstəriciləri

***Rayon üzrə 2025-ci ilin birinci rübü ərzində 234 doğum, 121 ölüm, 126 nikah və 31 boşanma aktı qeydə alınmışdır. Əhalinin hər min nəfərinə doğulanların sayı 11,1, ölənlərin sayı 5,7, nikahların sayı 6,0, boşanmaların sayı 1,5 olmuşdur.***

***Ucar Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Cəlil Vəliməmmədov***

# Həbsdəki sabiq icra başçılarının ağlasığmaz davası

## Korrupsiya ilə sərvət sahibi olanlar müsadirə edilən varidatlarını geri almaq üçün hərəkətə keçiblər - Bu cəsarəti hardan alırlar?

***Məhkəmə Biləsuvar Rayon İcra Hakimiyyətinin həbsdə olan sabiq icra başçısı Mahir Quliyevin cinayət işi üzrə qərar verib. Yerli KİV-in məlumatına görə, Şirvan Apellyasiya Məhkəməsində keçirilən prosesdə onun cinayət işi üzrə dövlət nəfinə müsadirə edilmiş Bakının Xətai rayonunda yerləşən və dəyəri 454 min manat olan mənzillərin geri qaytarılması üçün verilən şikayətə baxılıb.***

Apellyasiya şikayəti onunla əsaslandırılıb ki, sözügedən əmlak Mahir Quliyev icra başçısı vəzifəsinə təyin olunmamışdan əvvəl alınıb.

Məhkəmə şikayəti təmin etməyib.

Xatırladaq ki, M.Quliyev Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən keçirilən əməliyyatla həbs olunub. O, Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə və israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə təqsirli bilinərək, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 11 il azadlıqdan məhrum edilib.

Hökmə əsasən, Mahir Quliyevin 2 mənzili və 1 avtomobili dövlət nəfinə müsadirə olunub.

Daha sonra Ali Məhkəmənin qərarı ilə onun cəzası 11 ildən 8 il 3 aya endirilsə də, əmlakları ilə bağlı məhkəmə hökmü olduğu kimi qalıb.

Xatırladaq ki, M.Quliyevdən əvvəl həbsdə olan başqa bir sabiq icra başçısı - İmişlinin keçmiş rayon rəhbəri Vilyam Hacıyevin ailə üzvləri ümumilikdə 6 milyon manata yaxın dəyəri olan əmlaklarının geri qaytarılması tələbilə məhkəməyə müraciət ediblər (“Azpolitika”).

Cəlilabadın həbsdə olan keçmiş icra başçısı Namiq Zeynalov və ailə üzvləri də müsadirə edilən əmlaklarının qaytarılması uğrunda bir müddətdir mübarizə aparırlar. 2021-ci ildə həbs olunan Zeynalov xüsusilə külli miqdarda mənimsəmə, israf etmə, vəzifə səlahiyyətlərindən sui-istifadə, külli miqdarda rüşvət almaqda təqsirli bilinib, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 12 il həbs cəzası verilib. Bundan başqa, iş üzrə üzərinə həbs qoyulmuş ümumi dəyəri 2 milyona yaxın olan-fərdi yaşayış evləri, “Lexus” markalı minik avtomobili, müxtəlif təyinatlı torpaq sahələri dövlət nəfinə müsadirə edilib.

Həbsdə koronavirusdan vəfat edən Ağstafanın sabiq icra başçısı Nizaməddin Quliyevin müsadirə edilmiş əmlakları ilə bağlı da Ali Məhkəməyə müraciət olunmuşdu. Mərhum Quliyevin hüquqi varisi 600 min manatlıq əmlakın müsadirəsi qərarının ləğv edilməsini istəyirdi. Məlumatda bildirilirdi ki, eks-icra başçısının vəfatından sonra onun qardaşı hüquqi varisi qismində tanınıb. Onun tərəfindən verilən kassasiya şikayətinə yaxın günlərdə baxılacaq. Mərhum N.Quliyevin dövlət nəfinə alınmış əmlaklarının siyahısı belə idi: Goranboy rayonu, Heydər Əliyev prospekti, 106 ünvanında yerləşən orta bazar dəyəri 330 min manat olan qeyri-yaşayış binası; Goranboy şəhəri, Heydər Əliyev prospekti, 2 ünvanında yerləşən orta bazar dəyəri 143 min manat olan qeyri-yaşayış binası; Goranboy şəhəri, V.Bayramov küçəsində yerləşən orta bazar dəyəri 121 min manat olan daha bir qeyri-yaşayış binası; Goranboy rayonu, Aşağı Ağcakənd kəndində bazar dəyəri 20 min 800 manat olan torpaq sahəsi...



Əlbəttə, sırf hüquqi baxımdan hər bir Azərbaycan vətəndaşının məhkəməyə müraciət etmək və halal haqqını geri almaq hüququ var. Ancaq məhz adını çəkdiyimiz və çəkmədiyimiz bu adamların əmlak tələbi Azərbaycandakı korrupsiyalaşmış, cinayətkar məmur tipinin abırsızlıq səviyyəsinin hədd-hüdud tanımadığının sübutudur. Faktiki olaraq, həmin əmlakların eks-məmurlar tərəfindən oğurluq pullarla alındığına çətin ki, şübhə ilə yanaşan tapıla. Belədə həmin əmlakları geri tələb etmək hansı məntiqə və ədəbə sığır?!

Üstəlik, həbsdəki sabiq icra başçıları müsadirə edilən əmlaklarının korrupsiya hesabına qazanıldığını bilə-bilə onları geri qaytarmaq üçün dövlətlə davaya çıxmaq cəsarətini haradan alırlar? Təəssüf ki, burada məhkəmənin korrupsiyaya görə qandallanan bəzi sabiq məmurları vaxtından əvvəl azadlığa buraxmaqla və onların müsadirə olunan əmlaklarını özlərinə qaytarmaqla bağlı hökmlərinin rolu var. Məsələn, 2022-ci ildə Kürdəmirin sabiq icra başçısı Ceyhun Cəfərov və onunla birgə tutulan şəxslərin əmlakları üzərinə qoyulmuş həbslə bağlı qərar dəyişdirilmişdi. Qərara əsasən, Ceyhun Cəfərovla yanaşı, onun birinci müavini olmuş Tacəddin Novruzovla şöbə müdiri işləmiş Natiq Kərimovun əmlakları üzərinə qoyulan həbs götürülmüşdü. Yalnız dövlət nəfinə müsadirə olunmuş 1 qeyri-yaşayış sahəsi saxlanılmışdı.

Halbuki müsadirə edilən əmlakların siyahısı kifayət qədər uzun idi: Ceyhun Cəfərova məxsus Bakı şəhəri, Xəzər rayonu, Türkan qəsəbəsində 0,0370 ha torpaq sahəsi; Şüvəlan qəsəbəsində yerləşən 0,12 ha həyətyanı torpaq sahəsi; Tacəddin Novruzova məxsus Kürdəmir rayonu, Atakişili kəndində yerləşən fərdi yaşayış evi; Natiq Kərimova məxsus Kürdəmir rayonu, Pirili kəndində yerləşən 6,94 ha kənd təsərrüfat təyinatlı və 0,48 ha həyətyanı torpaq sahələri; Kürdəmir rayonu Karrar kəndində 2,07 ha kənd təsərrüfat təyinatlı torpaq sahəsi; Kürdəmir şəhəri, Bakı prospektində 0,0042 ha torpaq sahəsi; Kürdəmir şəhəri, Xalid Qənbərov küçəsi 15 ünvanında yerləşən 0,15 ha həyətyanı torpaq sahəsi; Kürdəmir şəhəri, Xalid Qənbərov küçəsi 17 ünvanında yerləşən 0,10 ha həyətyanı torpaq sahəsi; Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Şimal hissəsi 80 saylı ünvanda yerləşən 0,0300 ha torpaq sahəsi; Bakı şəhəri, Binəqədi rayonu, Şövkət Məmmədova küçəsi ev 7 ünvanında yerləşən 83 nömrəli mənzil; Bakı şəhəri, Binəqədi rayonu, İ.Dadaşov küçəsi 74 ünvanında yerləşən 41,5 kv.m qeyri-yaşayış binası.

Görünür ki, bu cür nümunələr həbsdəki digər icra başçılarını, onların azadlıqdakı yaxınlarını da korrupsiya ilə əldə olunmuş əmlaklarını dövlət nəfinə müsadirədən qurtarmağa və həmin əmlaklara yenidən yiyələnməyə ürəkləndirir? Halbuki korrupsiya ilə mübarizə tamamilə güzəştsiz olmalıdır, yalnız belədə biz bu bəlanın kökünü biryolluq qazımağa nail ola bilərik...

***Sənan Mirzə***

**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan cəmiyyəti yüksək siyasi mədəniyyətə malikdir!

## Əhməd Qəşəmoğlu: " Siyasi fəalın davranışı cəmiyyətdə gərginlik yaratmamalıdır"



***"Sosial və siyasi mədəniyyət ümumi mədəniyyət anlayışının bir hissəsidir. Sosial və siyasi mədəniyyəti yüksək olan insanlar həmin sahələrin inkişafı üçün mütərəqqi addımlar atır və problemlərin həllinə çalışır". Bu fikri "Unikal" qəzetinə açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu bildirib.***

Qeyd edək ki, son illər cəmiyyətdə sosial və siyasi mədəniyyətin artdığı daha çox hiss olunur. Cəmiyyətin baş verən sosial və siyasi hadisələrə münasibət bildirməsi, əhali arasında siyasi mədəniyyət səviyyəsinin yüksəlməsinin göstəricilərindəndir. Xüsusilə vurğulamaq lazımdır ki, istənilən dövlətin, cəmiyyətin inkişafı onun ümumi mədəni səviyyəsi, o cümlədən siyasi mədəniyyət səviyyəsi ilə sıx bağlıdır. Hansı cəmiyyətlərdə ümumi siyasi mədəniyyət yüksəkdirsə, orada həm dövlət qurumları, həm də cəmiyyət kifayət qədər güclüdür.

Siyasi mədəniyyət cəmiyyətin hər bir üzvünün çox mühüm keyfiyyəti, onun şəxsiyyətinin savad göstəricisi hesab olunur. Bu gün siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, eləcə də siyasi fəallığın artırılması üçün ölkədə lazımi şərait yaradılıb. Siyasi baxışından, dinindən, dilindən asılı olmayaraq, hər bir vətəndaş rahat və sərbəst yaşayır və fəaliyyət göstərir. Sosioloji sorğular göstərir ki, Azərbaycanda ölkə əhalisi siyasi sistemə münasibətdə olduqca informativ və aktivdir. Siyasi sistemin sabitliyinə və davamlılığına münasibətdə xalqın rəyi dəyişməzdir.

Ə. Qəşəmoğlu deyir ki, siyasi mədəniyyət bütövlükdə siyasi davranış siyasi biliklərə yiyələnmək, siyasi baxışları qiymətləndirmək, nəhayət, siyasi fəaliyyət mədəniyyətidir: "Siyasi mədəniyyətin subyekti cəmiyyət, siniflər, sosial qruplar, siyasi partiyalar, təsisatlar, şəxslər və s. ola bilər. Azərbaycana gəlincə, ölkə əhalisinin sosial həyat tərzində baş verən dəyişikliklər əhalinin siyasi mədəniyyətinə də müsbət təsirlərini göstərib. Sosial reallıq, cəmiyyətdəki və şəxsiyyətlər arasındakı münasibətlər, mənəvi və əxlaqi dəyərlər sistemi, ictimai rəy və ənənələr siyasi mədəniyyətin formalaşmasına təsir göstərən amillərdir. Siyasi mədəniyyət sistem daxilində siyasi təsisatların qarşılıqlı münasibətlərini, eləcə də onların sosial sistemin başqa ünsürləri ilə əlaqələrini normalar, dəyərlər, ənənələr vasitəsilə tənzimləyir".

Onun sözlərinə görə, vətəndaşların siyasi fəallığının artırılması üçün, onların siyasi proseslərə cəlb edilməsi və rolları-nın artırılması vacibdir. Onun sözlərinə görə, siyasi fəallığın səviyyəsi hakimiyyətə qarşı çıxmaqla ölçülmür. Müsahibimiz deyir ki, siyasi fəalın davranışı cəmiyyətdə gərginlik yaratmamalıdır: "Təəssüf ki, indiki dövrdə bu hallarla çox qarşılaşırıq. Ona görə də cəmiyyətin siyasi və sosial savadı artırılmalıdır. Bu istiqamətdə ciddi maarifləndirmə işlərinin aparılması zəruridir".

Qeyd edək ki, Azərbaycanda, əsasən, müstəqillik əldə edildikdən sonra formalaşan siyasi mədəniyyət azərbaycançılıq kontekstində inkişaf edir, bu ideologiyaya xidmət göstərir. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra dövlətimiz hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində mühüm addımlar atdı. Azərbaycan dünyaya inteqrasiya etməyə başladı, beynəlxalq sazişlər imzaladı, öhdəliklər götürdü. Ondan sonrakı dövrdə insan hüquq və azadlıqları istiqamətində, siyasi mədəniyyətin formalaşmasında ciddi addımlar atıldı. Eyni zamanda, 2003-cü ildən sonra bu sahə daha da inkişaf etdirildi. Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqlarının qorunması, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi istiqamətində inkişaf artan xətt üzrə davam edir. Təcrübə göstərir ki, siyasi mədəniyyəti yüksək olan cəmiyyətlərdə vətəndaşlar öz hüquq və azadlıqlarını daha yaxşı dərk edir. Hazırda ölkə vətəndaşları dövlətin idarə edilməsində, ayrı-ayrı məsələlərin həllinə təşəbbüs göstərməkdə də fəaldırlar. Vətəndaşlarımızın sosial, siyasi fəallığının yüksək olmasını seçki prosesində, ayrı-ayrı məsələlərə münasibətdə də görürük. Azərbaycan sosial-mədəni dəyişikliklər baxımından uğurlu yoldadır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

# Bu siniflər də liseylərə imtahan verə biləcək



***Məlum olduğu kimi, 2025-2026-cı tədris ili üzrə Bakı şəhəri və ölkənin müxtəlif bölgələrində yerləşən, şagird qəbulu mərkəzləşdirilmiş imtahanla həyata keçirilən bir sıra lisey və gimnaziyaların 7-ci siniflərinə qəbul prosesinə start verilir.***

"Unikal" xəbər verir ki, Təhsil İnstitutu məsələ ilə bağlı məlumat yayıb.

Bildirilib ki, şagirdlərin lisey və gimnaziyalarda təhsil almağa böyük maraqlarını və tədris ili boyunca imtahan prosesinə hazırlıqlarını nəzərə alaraq bildiririk ki, 2025-2026-cı tədris ilində istisna olaraq V, VI və VIII siniflər üzrə də qəbul prosesi həyata keçiriləcək. Belə ki, mərkəzləşdirilmiş qaydada keçirilən qəbul imtahanında IV, V və VII sinifdə təhsil alan (yəni 2025-2026-cı tədris ilində V, VI və VIII sinfə keçəcək) şagirdlərin də iştirakı təmin ediləcək.

Qeyd edək ki, 2026-2027-ci tədris ilindən etibarən lisey və gimnaziyalara qəbul yalnız 7-ci siniflər üzrə həyata keçiriləcək.

# Ağdaş rayonunda pərakəndə ticarət dövriyyəsinin əsas göstəriciləri

***2025-ci il yanvar-mart aylarında ticarət şəbəkələrində əhaliyə faktiki qiymətlərlə 77014,5 min manatlıq istehlak malları satılmışdır. Pərakəndə ticarət dövriyyəsi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz çox olmuşdur.***

Satılmış istehlak mallarının 21,6 faizi hüquqi şəxslərin, 78,4 faizi isə fərdi sahibkarlar, bazar və yarmarkaların payına düşmüşdür.

**Pərakəndə ticarət dövriyyəsinin strukturu**




Fərdi sahibkarlar, bazar və yarmarkalar üzrə əmtəə dövriyyəsinin 35,7 faizi fərdi sahibkarlara, 64,3 faizi isə bazar və yarmarkalara aid olmuşdur. Hesabat dövründə pərakəndə ticarət şəbəkələrində satılmış məhsulların 59,2 faizini qida məhsulları, içkilər və tütün məmulatları, 40,8 faizini qeyri-qida məhsulları təşkil etmişdir. Realizə olunmuş istehlak məhsullarının çox hissəsini ət və quş əti, meyvə, tərəvəz, bitki yağları, süd və süd məhsulları, yumurta, şəkər, çörək-bulka məmulatları, un, makaron məmulatları, paltar və alt geyimləri, təsərrüfat malları, işıqlandırma cihazları, avtonəqliyyat hissələri, benzin, dizel yanacağı, dərman və kosmetika vasitələri təşkil etmişdir. 2025-ci il yanvar-mart aylarında ticarət, nəqliyyat vasitələrinin təmiri üzrə məhsul buraxılışı faktiki qiymətlərlə 24644,6 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qiymət indeksi nəzərə alınmaqla 1,6 faiz çox olmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsinin aparıcı məsləhətçisi Əhməd Lətifov***

# Bakıda orta aylıq əməkhaqqı artıb

***2025-ci ilin yanvar-fevral aylarında Bakı şəhərində muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2024-cü ilin müvafiq dövrünə nisbətən 5,9% artaraq 1303,2 manat təşkil edib.***

"Unikal" xəbər verir ki, bu barədə Bakı Şəhər Statistika İdarəsindən bildirilib. Qeyd edək ki, 2025-ci ilin yanvar-fevral aylarında Azərbaycanda iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 10,2 faiz artaraq 1043,6 manat təşkil edib.

20_27 IYUl-QARA.qxd 5/29/2025 10:56 PM Page 13





# 13 kəndin yolları yenidən qurulur

***Tovuz və Gədəbəy rayonlarını əhatə edən və 13 yaşayış məntəqəsini birləşdirən Çatax-Çeşməli-Mollalar-Məşədivəlilər-Həsənli-Abbasqulular-Papaqçılar-Güvəndik-Lazılar-Novosaratovka marşrutu üzrə avtomobil yollarının yenidən qurulmasına başlanılıb.***

Bu barədə "Unikal"a Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, layihə çərçivəsində ümumi uzunluğu 24,6 kilometr olan avtomobil yollarının əsaslı şəkildə bərpası həyata keçirilir. Uzun müddət təmir olunmadan istismarda olan bu yollar təbii amillərin təsiri nəticəsində yararsız vəziyyətə düşmüşdü. Xüsusilə payız-qış mövsümündə dağlıq ərazilərdə yerləşən yaşayış məntəqələri ilə nəqliyyat əlaqəsində çətinliklər yaranırdı.

Dövlət başçısının müvafiq tapşırıqlarına əsasən, yol infrastrukturunun təkmilləşdirilməsi və əhalinin gediş-gəlişinin yaxşılaşdırılması məqsədilə sözügedən yolların yenidən qurulmasına başlanılıb. Layihə üzrə avtomobil yolları IV, bəzi sahələrdə isə V texniki dərəcəyə uyğun şəkildə yenidən qurulur.

Hazırda layihənin Çatax-Çeşməli-Novosaratovka istiqamətində torpaq işləri, yolun hamarlanması və normativ enə salınaraq genişləndirilməsi işləri həyata keçirilir. Bu mərhələdən sonra texnoloji ardıcıllığa uyğun olaraq yol əsasının tikintisi və asfalt-beton örtüyünün döşənməsi işləri icra olunacaq.

Eyni zamanda, yolboyu suların ötürülməsi məqsədilə zəruri nöqtələrdə suötürücü boruların quraşdırılması da layihə çərçivəsində nəzərdə tutulub.

Qeyd edək ki, layihənin başlanğıc - 1-ci kilometr hissəsində yerləşən mövcud körpünün sökülməsi və əvəzində bir aşırımlı yeni körpünün inşası planlaşdırılır.

Yenidənqurma işlərinin yekun mərhələsində hərəkətin təhlükəsiz və nizamlı təşkili üçün yol nişanlarının və kilometraj göstəricilərinin quraşdırılması, həmçinin yolcizgi və yolgöstərici xətlərinin çəkilməsi nəzərdə tutulub.

# 2025-ci ilin yanvar-mart ayları Yevlax rayonu üzrə "Kənd təsərrüfatı ilə bağlı ümumi məlumat"




***Kənd təsərrüfatı müəssisələri, əhali və fermer təsərrüfatlarında 2025-ci ilin məhsulu üçün payızlıq bitkilərin səpini başa çatmışdır.***

Belə ki, 2025-ci ilin məhsulu üçün 4425,7 hektar sahədə buğda, 5926,4 hektar sahədə isə arpa səpini aparılmışdır.

Əvvəlki ilin yanvar-mart ayları ilə müqayisədə 1132,9 hektar az buğda, 575,0 hektar az arpa səpini aparılmışdır. Yazlıq bitkilərin əkini üçün 16670,0 hektar sahə şumlanaraq arata qoyulmuşdur. Aprelin 1-i vəziyyətinə 4098,0 hektar yazlıq bitkiləri əkilmişdir ki, ondan 15,0 hektar qarğıdalı, 3370,0 hektar çoxillik otlar (təzə yonca), 85,0 hektar kartof, 230,0 hektar tərəvəz, 110,0 hektar günəbaxan, 228,0 hektar şəkər çuğunduru olmuşdur.

Keçən ilin yanvar-mart aylarında 4147,0 hektar yazlıq bitkiləri əkilmişdir ki, bu da 49,0 hektar və ya 1,2 faiz az olmuşdur.

Cari ilin yanvar-mart aylarında ət istehsalı (diri çəkidə) 2339,6 ton, süd istehsalı 9857,4 ton, yumurta istehsalı 5020 min ədəd olmuş və əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 22,4 ton, süd istehsalı 37,0 ton, yumurta istehsalı 5 min ədəd çox olmuşdur. 01.04.2025-ci il vəziyyətinə 68741 baş mal-qara, o cümlədən 29195 baş inək və camışlar, 176775 baş qoyun və keçi, 459398 baş quş mövcuddur.

*Yevlax Şəhər Statistika İdarəsinin rəisi*
*Saleh Cəfərov*

# Qabiliyyət imtahanı verəcək şəxslərin nəzərinə!



***2025/2026-cı tədris ili üçün ali təhsil müəssisələrinin (V ixtisas qrupu) və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları (XQTİ) üzrə qeydiyyat prosesi mayın 30-da saat 23:59-da başa çatacaq.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilib ki, abituriyentlər (subbakalavrlar) müvafiq keçidə daxil olub qeydiyyatdan keçə bilərlər. Abituriyentlər ali və orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yalnız 1 istiqaməti üzrə ən çox 4 komissiyadan qeydiyyatdan keçə bilərlər. Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin XQTİ-ləri üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlər isə 1 istiqamətə aid ən çox 6 komissiya üzrə qeydiyyatdan keçə bilərlər.

Ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə "Abituriyent" jurnalının xüsusi buraxılışları nəşr olunub. Vəsaitlərin elektron versiyası isə (PDF formatda) www.abiturient.az saytından və ya DİM-in internet saytının "Elektron xidmətlər" bölməsində "DİM nəşrlərinin elektron versiyalarının onlayn satışı" xidməti vasitəsilə ödəniş etməklə əldə etmək olar.

Xidmətə keçid: http://eservices.dim.gov.az/ejurnal

Qabiliyyət imtahanlarının iyun - avqust aylarında keçirilməsi nəzərdə tutulur. DİM-in internet səhifəsində abituriyentlərə (subbakalavrlara) "Qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edə biləcəkləri tarixlər haqqında məlumat veriləcək. "Qabiliyyət imtahanına buraxılış vərəqəsi"ndə qabiliyyət imtahanlarının tarixi, keçiriləcəyi ünvan və vaxt göstəriləcəkdir.

Qəbul (buraxılış) imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər Azərbaycan dili (dövlət dili kimi) üzrə imtahanın nəticəsindən asılı olmayaraq qeydiyyatdan keçə bilərlər. Lakin bu imtahandan "qeyri-məqbul" alan abituriyentlərin nəzərinə çatdırırıq ki, onlar 29 iyun tarixində keçiriləcək Azərbaycan dili imtahanının ikinci cəhdində "məqbul" aldıqları təqdirdə müsabiqəyə buraxılırlar.

Aldıqları orta ixtisas təhsilinə uyğun olan qabiliyyət imtahanı komissiyaları üzrə qeydiyyatdan keçmək istəyən subbakalavrlar ilk növbədə DİM-in saytında "Subbakalavrın elektron ərizə"sini doldurub təsdiq etməlidirlər. Təhsil məlumatları tam olmayan XQTİ-lər üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən subbakalavrlar tələb olunan məlumatların orta ixtisas təhsili müəssisəsinin məsul şəxsləri tərəfindən sistemə yerləşdirilməsini diqqətdə saxlamalıdırlar. Daha sonra subbakalavrlar 30 may saat 23:59-dək müvafiq qabiliyyət komissiyası üzrə də qeydiyyatdan keçməlidirlər. Yəni onlar əvvəlcə "Subbakalavrın elektron ərizə"sini təsdiq edib sonra qabiliyyət imtahanı komissiyaları üzrə qeydiyyatdan keçə bilərlər.

Xüsusi qabiliyyət imtahanı ilə bağlı daha geniş məlumatla elanın tam mətnində tanış olmaq mümkündür.

Qeyd: Orta ixtisas təhsili müəssisəsini cari ildə bitirəcək subbakalavrlar elektron ərizəni yadda saxladıqdan sonra qabiliyyət imtahanı üçün qeydiyyatdan keçə bilirlər. Ancaq həmin subbakalavrlar da orta ixtisas təhsili müəssisəsinin məsul şəxsləri tərəfindən tələb olunan məlumatlar sistemə yerləşdirildikdən sonra iyulun 10-dək öz ərizələrini təsdiq etməlidirlər.

# DSX-nin mayoruna hücum edən idmançılara ağır ittiham - 11 ilədək həbs...



***Dövlət Sərhəd Xidmətinin (DSX) mayoru, əməkdar məşqçi Fuad Zeynalovla insidentdən sonra həbs edilən kikboksçuların ittihamı ağırlaşdırılıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, ibtidai istintaq zamanı toplanmış sübutlar nəticəsində təqsirləndirilən şəxslər - Elçin Hüseynov, Elnur Həmidov və Musa Əhmədovun əməlində ağır cinayət tərkibi müəyyən olunub.

Onlara Cinayət Məcəlləsinin 221.2.1-ci (bir qrup şəxs tərəfindən və ya təkrarən xuliqanlıq) maddəsindən əlavə, eyni məcəllənin daha ağır - 126.2.4-cü (ümumi təhlükəli üsulla, xuliqanlıq niyyəti ilə qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə yeni ittiham elan edilib. İdmançılar təqsirli bilinəcəkləri halda 6 ildən 11 ilədək azadlıqdan məhrum edilə bilərlər.

Məlumatı təqsirləndirilən şəxslərdən birinin vəkili Yusif Seyfəlov saytımıza təsdiq edib.

Yaxın günlərdə iş üzrə məhkəmə araşdırması başlanacaq.

Qeyd edək ki, bu ilin yanvarında Xətai rayonunda baş verən hadisə zamanı bir qrup idmançı kikboksinq üzrə əməkdar məşqçi Fuad Zeynalov və onunla birlikdə olan şəxsə hücum edib. Hadisə nəticəsində sonuncunun ağır xəsarət aldığı bildirilib.

20_27 IYUl-QARA.qxd 5/29/2025 10:56 PM Page 14



# İyunun 1-də 45 679 abituriyent imtahan verəcək



***Dövlət İmtahan Mərkəzi (DİM) iyunun 1-də I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçiriləcək.***

”Unikal” DİM-ə istinadən xəbər verir ki, həmin gün III qrup üzrə DT və TC altqruplarının hər ikisini seçənlər üçün coğrafiya fənni üzrə də imtahan keçiriləcək.

İmtahanlar Bakı, Xankəndi, Naxçıvan, Gəncə, Şəmkir, Ağstafa, Qazax, Sumqayıt, Abşeron, Şamaxı, Mingəçevir, Şəki, Zaqatala, Bərdə, Göyçay, Kürdəmir, Şirvan, Sabirabad, Salyan, Lənkəran, Masallı, Quba və Xaçmazda təşkil olunacaq.

İştirakçılar mayın 21-dən etibarən Dövlət İmtahan Mərkəzinin saytından ”İmtahana buraxılış vərəqəsi”ni çap edə bilirlər.

“İmtahana buraxılış vərəqəsi”ndə imtahanın keçiriləcəyi şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

Abituriyentlərin bir daha nəzərinə çatdırırıq ki, imtahan saat 10:00-da başlanır.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

**Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:**

- İmtahana buraxılış vərəqəsi;

- Şəxsiyyəti təsdiq edən sənədin əsli.

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 187 imtahan binası, 3 381 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 187 ümumi imtahan rəhbəri, 537 imtahan rəhbəri, 4 236 nəzarətçi, 597 buraxılış rejimi əməkdaşı, 187 bina nümayəndəsi cəlb olunub.

İmtahanda I ixtisas qrupu üzrə 31 min 167, IV ixtisas qrupu üzrə 6 526, III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə imtahanda isə 7 986 nəfər olmaqla, ümumilikdə 45 min 679 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahanda 53 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) abituriyentlər də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda qeyd olunan şəhər və rayonlarda imtahanlarda iştirak edəcək digər nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilir, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılır. Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə mayın 31-də təkrar baxış keçiriləcək və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə veriləcək.

# Bu şəxslər işləmədən 6 ay maaş alacaqlar

***”Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sonuncu iclasında Əmək Məcəlləsində dəyişikliklər müzakirə olunaraq plenar iclasa tövsiyyə olundu. Qanunvericiliyə təklif edilən yeni dəyişikliklər ilə sertifikasiya şəhadətnaməsinin əldə edilməsi üçün tibb mütəxəssislərinin öz seçimlərindən asılı olaraq beş ildə bir dəfə imtahanda iştirak etməsi və ya elmi, pedaqoji və digər tədris fəaliyyətləri ilə məşğul olmaqla davamlı peşəkar inkişafını həyata keçirməsi təklif olunur”.***

”Unikal” xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, illik və beş illik minimum kreditlərini toplamayan şəxslər praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olmaq üçün sertifikasiya imtahanından keçməlidirlər:



”Dəyişikliklərdə əsas məqamlardan biri sertifikasiya imtahanından keçməyən işçilərin altı ay müddətində iş yeri və aylıq vəzifə maaşının saxlanılmasıdır. Yəni, sertifikasiyadan keçməyən vətəndaşımızın altı aylıq maaşı saxlanacaq ki, o növbəti, ikinci imtahana hazırlaşa bilsin. Bu zaman onun əmək müqaviləsinə xitam verilməyəcək. Yəni, həmin vətəndaşlarımız sertifikasiyanın birinci mərhələsində uğur qazana bilməsələr, onlar işdən azad edilməyəcəklər. Bu onlara əmək müqaviləsi saxlanmaqla yenidən özünü sınamaq imkanı deməkdir.

Dəyişikliklər sertifikasiyanın birinci mərhələsində uğur qazana bilməyənlərin sosial müdafiəsini qorumaq və eləcə də onlara əmək müqaviləsi saxlanılmaqla yenidən imtahanda iştirak imkanı yaradacaq. Yalnız ikinci cəhdə uğursuz olanların əmək müqaviləsinə xitam veriləcək. Birinci imtahanda sertifikasiyadan keçə bilməyənlərin işdən azad olunmaması sosial ədalət baxımından da vacib dəyişikliklərdir”.

# 2025-ci ilin yanvar-aprel aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin fəaliyyəti haqqında statistika

***2025-ci ilin yanvar-aprel ayları ərzində Goranboy rayonunda 4 mehmanxana fəaliyyət göstərmişdir ki, həmin mehmanxanalarda nömrələrin sayı 62, yerlərin sayı isə 128 çarpayıdır.***

2025-ci ilin yanvar-aprel aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərdə keçirilmiş gecələmələrin sayı 2024-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 22,9 faiz azalaraq 853 olmuşdur.

2025-ci ilin yanvar-aprel aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərdə yerləşdirilmiş şəxslərin sayı 2024-cü ilin eyni dövrü ilə müqayisədə 14,0 faiz artaraq 480 nəfər olmuşdur.

2025-ci ilin yanvar-aprel aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin gəlirləri 2024-cü ilin yanvar-aprel ayları ilə müqayisədə 6,3 faiz artaraq 55,4 min manat olmuşdur ki, onun da 38,8 faizi nömrələrin (otaqların) təqdim olunması üzrə xidmətlərdən, 10,1 faizi ictimai iaşə xidmətlərindən, 51,1 faizi isə digər xidmətlərin göstərilməsindən əldə edilmişdir.




2025-ci ilin yanvar-aprel aylarında mehmanxana (hotel) və mehmanxana tipli obyektlərin birdəfəlik tutumundan istifadə səviyyəsi 5,6 faiz olmuşdur. (2024-cü ilin yanvar-aprel aylarında 6,8 faiz)

***Goranboy Rayon Statistika İdarəsi***

# 2025-ci ilin yanvar-mart ayları Yevlaxda “Ümumi məhsul və əhalinin gəlirləri” haqqında statistika

***2025-ci ilin yanvar-mart aylarında rayon iqtisadiyyatının əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi əvvəlki ilin eyni dövrünə nisbətən 16,5 faiz və ya faktiki qiymətlərlə 14206,0 min manat artaraq 100485,0 min manat olmuşdur.***

ÜMB-ın 50,5 faizi və ya 50718,1 min manatı istehsal, 49,5 faizi və ya 49766,9 min manatı isə xidmət sahələrində yaranmışdır.

Keçən ilin müvafiq dövründə istehsal 38495,2 min manat, xidmət isə 49766,9 min manat təşkil etmişdir.

Mal və xidmətlərin faktiki qiymətlərlə buraxılışı sənaye sahəsində 12734,2 min manat və ya ümumi məhsul buraxılışının həcmində xüsusi çəkisi 12,7 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 26914,7 min manat və ya 26,8 faiz, tikinti sahəsində 11069,2 min manat və ya 11,0 faiz, ticarət, nəqliyyat vasitələrinin təmiri sahəsində 46950,5 min manat və ya 46,7 faiz, nəqliyyat və anbar təsərrüfatı sahəsində 1715,0 min manat və ya 1,7 faiz, informasiya və rabitə sahəsində 1101,4 min manat və ya 1,1 faiz olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin rəisi***
***Saleh Cəfərov***

# 2025-ci ilin ilk 3 ayında Ağdaşda tikintinin əsas göstəriciləri belə olub

***2025-ci ilin yanvar-mart aylarında bütün maliyyə mənbələrindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 3 milyon 380,6 min manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 77,2 faiz az vəsait yönəldilmişdir.***

Ümumi sərmayənin 37,2 min manatı və ya 1,1 faizi dövlət, 3 milyon 343,4 min manatı və ya 98,9 faizi isə qeyri-dövlət sektorunun sərmayədarları tərəfindən qoyulmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 1 milyon 428,8 min manatı və ya 42,3 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə, 1 milyon 951,8 min manatı və ya 57,7 faizi isə maşın, avadanlıqların və digər əsas vəsaitlərin alınmasına sərf olunmuşdur. 2025-ci ilin yanvar-mart aylarında tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsait əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 88,4 faiz azalmışdır. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 99,7 faiz azalmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 0,1 faiz artmışdır.

***Ağdaş Rayon Statistika İdarəsinin***
***məsləhətçisi Azər İsgəndərli***

20_27 IYUl-QARA.qxd 5/29/2025 10:56 PM Page 15





# İlon Mask Ağ Evi tərk etdi

***Amerikalı sahibkar İlon Mask ABŞ Prezidenti Donald Trampın Hökumətin Effektivliyi Departamentinin (DOGE) işinə nəzarət etdiyi administrasiyanı tərk edib.***

"Unikal" xəbər verir ki, bu barədə milyarder "X" hesabında yazıb.

"Xüsusi dövlət işçisi kimi planlaşdırdığım müddətim başa çatdıqda, mən prezident Donald Trampa israfçı xərcləri azaltmaq imkanına görə təşəkkür etmək istərdim", - Mask qeyd edib.

O, DOGE-nin missiyasının "bütün hökumət üçün həyat tərzinə çevrildiyi üçün zaman keçdikcə daha da güclənəcəyinə" əmin olduğunu bildirib.

ABŞ qanunlarına görə, Maskın yanvarın 20-də aldığı müvəqqəti dövlət işçisi statusu mayın 30-da başa çatmalı idi. Bununla belə, dəqiq tarix faktiki işlədiyi günlərin sayından asılı olaraq dəyişə bilər.

Tramp administrasiyasındakı "Associated Press" və "Bloomberg" mənbələri Maskın Ağ Evi tərk etdiyini təsdiqləyib.

***Gülayə Mecid***

# "BMT Ukrayna məsələsində Qərblə yanaşı oynayır"

***"BMT Katibliyi Ukrayna böhranı kontekstində Qərblə yanaşı oynayır".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.

Nazirliyin məlumatına görə, BMT Katibliyi on ildən artıqdır ki, Ukrayna böhranının həlli yollarının real axtarışına töhfə verməyib.

# Tramp Putinə 14 gün vaxt verdi

***"Vaşinqton bir-iki həftə ərzində Ukraynada müharibəyə son qoymaq üçün danışıqlarda gələcək taktikalara qərar verəcək. Bu qərar daha çox Rusiyanın davranışından asılı olacaq".***

"Unikal" xəbər verir ki, bunu ABŞ lideri Donald Tramp Ağ Evdə jurnalistlərə açıqlamasında deyib.

"İki həftə ərzində Putinin qərarını biləcəyik. Buna görə də reaksiya verəcəyik. Xüsusi nümayəndəmiz Stiv Uitkoff indi onlarla fəal işləyir, fenomenal iş görür. Görünür, onlar hansısa razılaşmaya hazırdırlar. Amma hələ heç nə imzalanmayıb, danışmaq tezdir", - Tramp jurnalistlərlə söhbətində deyib.

Amerika prezidenti əlavə edib ki, Vladimir Putinin həqiqətən də münaqişənin sona çatmasında maraqlı olub-olmadığını indi dəqiq deyə bilməz. Eyni zamanda Tramp bir daha bəyan edib ki, Putin Ukraynanın dinc şəhərlərini vurmaqla "odla oynayır".

"Bir neçə gecə əvvəl baş verənlərdən (Ukraynanın mülki şəhərlərinə kütləvi hücumlar) insanların həlak olmasından çox məyus oldum", - o, əlavə edib.

***Gülayə Mecid***

# "Biz qardaşlıq gücünə güvənirik" - Ərdoğan

***Azərbaycan səfərindən sonra Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan təyyarədə jurnalistlərin suallarını cavablandırıb.***

"Unikal" xəbər verir ki, Ərdoğan terror təşkilatı PKK-nın ləğvi və tərksilah edilməsi qərarı ilə bağlı açıqlama verib.

Onun sözlərinə görə, terror təşkilatı hələ də gecikdirmə taktikalarını davam etdirir.

"Suriyanın ərazi bütövlüyü, unitar quruluşu və milli birliyi mütləq qorunmalıdır. Daha əvvəl də bildirmişdik ki, əldə olunan razılaşmanı alqışlayırıq. Bununla belə, Suriya Demokratik



Qüvvələrinin hələ də gecikdirmə taktikasını davam etdirdiyini görürük. Onlar bundan əl çəkməlidirlər. Qəbul edilmiş qərarların icrasını çox diqqətlə izləyirik. Vacib olan odur ki, verilən vədlərə uyğun olaraq həyata keçirilir. Şükürlər olsun ki, terrorsuz Türkiyə prosesində heç bir problem, sıxıntı yoxdur. İnkişaflar müsbət istiqamətdə davam edir.

İnşallah Terrorsuz Türkiyə məqsədimizə çatarıq. Nə etsək də, ölkəmiz, Türkiyə üçün edirik. Nə etsək də, millətimizin əmin-amanlığı, təhlükəsizliyi üçün edirik. Biz heç vaxt millətimizi narahat edəcək heç bir danışıqlara getməzdik. Biz millətimizə güvənirik, qardaşlıq gücünə güvənirik".

***Gülayə Mecid***

# "Bakı və İrəvan diplomatik kanallar vasitəsilə danışıqlar aparır" - Qriqoryan

***Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması prosesi son mərhələyə qədəm qoyub.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan bildirib.

Onun sözlərinə görə, sazişin mətni nəhayət razılaşdırılıb, yalnız imzalanması qalıb: "Hazırda iki ölkə arasında diplomatik kanallar vasitəsilə müqavilənin imzalanmasına hazırlıq məqsədilə məsləhətləşmələr aparılır".

Qriqoryan onu da vurğulayıb ki, Ermənistan tərəfi sülh müqaviləsi imzalanan gün Minsk Qrupunun buraxılması ilə bağlı rəsmi bəyanat verməyə hazırdır.

***Ağarza Elçinoğlu***





# Kreml atəşkəs şərtlərini açıqlamayacaq

***Kreml hələlik Ukrayna ilə atəşkəs üçün irəli sürəcəyi şərtləri açıqlamayacaq.***

"Unikal" xəbər verir ki, bunu Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

O qeyd edib ki, Kreml tərəflərin mübadilə etdikləri layihələrin məzmununu açıq şəkildə müzakirə etməyəcək. "Çünki bütün danışıqlar açıq qapılar arxasında deyil, bağlı qapılar arxasında aparılmalıdır", - Peskov izah edib.

***Gülayə Mecid***

# Bu ölkə Arktikaya qoşun yerləşdirir

***Böyük Britaniya hökuməti Rusiyanın bölgədə artan iştirakına cavab olaraq müntəzəm olaraq Arktikaya qoşun yeridə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Britaniyanın "The Daily Telegraph" qəzeti mənbələrə istinadən məlumat yayıb. Nəşr qeyd edir ki, müvafiq tövsiyə Britaniyanın müdafiə və xarici siyasəti ilə bağlı məsələlərin iyun ayında dərc edilməli olan hərtərəfli icmalına daxil edilə bilər. Böyük Britaniya Silahlı Qüvvələrinin çoxmillətli NATO batalyonunun tərkibində Arktikada 1000-ə yaxın hərbi qulluqçu yerləşdirə biləcəyi dəqiqləşdirilir.



# "Ərdoğan ABŞ-ya səfər edə bilər" - Fidan

***Türkiyənin xarici işlər naziri Hakan Fidan Prezident Rəcəb Tayyib Ərdoğanın ABŞ-yə səfərini istisna etməyib.***

"Unikal" xəbər verir ki, onun sözlərinə görə, Ağ Ev administrasiyasının rəhbəri Donald Tramp da Türkiyəyə səfər edə bilər.

"Prezidentlər Ərdoğan və Trampın səfər təqvimi üzərində iş davam edir. Türkiyə lideri Vaşinqtona səfər edə bilər. Trampın Türkiyəyə səfəri də mümkündür. Onlar NATO-nun Haaqa sammitində (24-25 iyun) görüşə bilərlər. Tez-tez telefonla əlaqə saxlayırlar, apardıqları danışıqlar son dərəcə məhsuldardır", - Fidan bildirib.

Qeyd edək ki, mayın 5-də Trampla telefon danışığından sonra Ərdoğan onu ABŞ-yə səfərə dəvət etdiyini bildirib. Belə bir səfərin təxmini tarixləri hələ məlum deyil. Bu arada Türkiyə mediası səfərin iyunda baş tuta biləcəyini istisna etmir.

***Gülayə Mecid***

# Zaur Qurtsiyev belə öldürülüb

Mayın 29-na keçən gecə Stavropolda yaşayış binasının həyətində partlayış baş verib. Naməlum şəxsin qumbaranı partlatması nəticəsində iki nəfər ölüb.

"Unikal" TASS-a istinadən xəbər verir ki, partlayış nəticəsində həlak olan şəhər administrasiyası rəhbərinin birinci müavini Zaur Qurtsiyevdir.

O, mayın 29-da səhər saatlarında Ukraynanın "Sülhməramlı" saytının məlumat bazasına daxil edilib.

Şəhər administrasiyasının mətbuat xidmətindən bildirilib ki, Qurtsiyev 2007-ci ildən Rusiya Silahlı Qüvvələrində xidmət edib. O, "İgidliyə görə" ordeni, 1-ci və 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri, Suvorov medalı, Jukov medalı ilə təltif edilib.

***Ağarza Elçinoğlu***

20_27 IYUl-QARA.qxd 5/29/2025 10:57 PM Page 16



# “Qarabağ”la “Sabah” kubokun finalında ilk dəfə üz-üzə gələcək



***“Qarabağ”la “Sabah” kubokun finalında ilk dəfə üz-üzə gələcək.***

”Unikal” Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, əvvəlki 30 finalda 23 fərqli cüt qarşılaşıb. Mayın 31-də qarşılaşacaq cütlük finallar tarixində 24-cü olacaq.

Əvvəlki 23 cütdən biri 3, beşi 2, digərləri bir dəfə qarşılaşıb. Rekord “Neftçi” ilə “Qarabağ”a məxsusdur. Üç dəfə baş tutan cütün duellərində bakılılar 1995/1996 (3:0), ağdamlılar 2014/2015 (3:1) və 2015/2016-cı illər (1:0) mövsümlərində qalib gəlib.

Dörd cütdə isə eyni komanda hər iki matçda qələbəyə sevinib. “Neftçi” “Şəmkir”i 1998/1999 (0:0, pen.5:3) və 2003/2004 (1:0, əlavə vaxtda), “Kəpəz” “Qarabağ”ı 1997/1998 (2:0) və 1999/2000 (2:1), “Xəzər Lənkəran” “İnter”i 2007/2008 (2:0, əlavə, vaxtda) və 2010/2011 (1:1, pen.4:2), “Qarabağ” “Zirə”ni 2021/2022 (1:1, pen. 4:3) və 2023/2024 (2:1) mövsümlərində üstələyib. “Neftçi” ilə “Qəbələ”nin finallarında isə hər komanda bir dəfə qalib gəlib. 2013/2014 mövsümündə bakılılar (1:1, p.3:2), 2022/2023-cü illər mövsümündə isə qəbələlilər (1:0, əlavə vaxtda) kuboka sahib çıxıblar.

# ""Sabah" beşinci yeri tutmağa layiq deyildi" - Qurban Qurbanov

***Çox vacib oyundur. Bu matç bütün azarkeşləri bir araya toplayacaq. Biz də öz növbəmizdə yaxşı oyun nümayiş etdirməliyik.***



”Unikal” xəbər verir ki, bu sözləri ”Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov Azərbaycan Kubokunda ”Sabah”la keçirəcəkləri final matçından öncə təşkil olunmuş mətbuat konfransında deyib.

Təcrübəli mütəxəssis rəqibin çox iddialı komanda olduğunu bildirib: ”Bilirik ki, qarşımızda çox güclü kollektiv olacaq. Vasili Berezutskinin gəlişindən sonra komandada yaxşı mənada dəyişikliklər hiss olunur. Bizə qarşı müdafiədə çox diqqətli oynayıblar. Görüşlərdə həvəsli və istəkli olduqları aydın görünür. Düşünürəm ki, ”Sabah” Misli Premyer Liqasında beşinci yeri tutmağa layiq deyildi. Onlar bu mövsüm özlərini yaxşı tərəfdən göstərməyi bacarıblar”.

Qeyd edək ki, mayın 31-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda keçiriləcək futbol üzrə Azərbaycan Kubokunun final oyunu saat 19:00-da start götürəcək.

# Messi və Suares dubl etdilər



***Lionel Messi və Luis Suares ABŞ-nin ”İnter Mayami” klubunun heyətində dubl ediblər.***

”Unikal” xəbər verir ki, hər iki oyunçu MLS-in 16-cı turunda ”Montreal”la oyunda iki qol vurub.

Messi 27 və 87-ci, Suares 68 və 71-ci dəqiqədə rəqib qapısına yola tapıb. Oyun isə Mayami təmsilçisinin 4:2 hesablı qələbəsi ilə başa çatıb.

Qeyd edək ki, ”İnter Mayami” 26 xalla 9-cu pillədədir.

# "Bu fəsil bitdi" - Ronaldo "Əl-Nəsr"dən gedir



***Ulduz futbolçu Kristiano Ronaldo ”Əl-Nəsr” futbol klubunu tərk etməyə hazırlaşır.***

”Unikal” xəbər verir ki, Ronaldo bu barədə özünün X hesabında yazıb: ”Bu fəsil bitdi. Hekayə? Hələ də yazılır. Hamıya təşəkkür edirəm”.

Qeyd edək ki, Ronaldonun ”Əl-Nəsr”lə müqaviləsi gələn ay başa çatacaq.

Ronaldo 2023-cü ilin yanvar ayından Səudiyyə klubunda oynayır.

***Ağarza Elçinoğlu***

# "Çelsi" Konfrans Liqasının çempionu oldu




***Konfrans Liqasında 2024-2025-ci illər mövsümünün qalibi məlum olub.***

”Unikal” xəbər verir ki, finalda İspaniyanın ”Betis” və İngiltərənin ”Çelsi” komandaları üz-üzə gəlib. Görüş London klubunun 4:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Hesabı Sevilya təmsilçisinin heyətində Ezzalzuli açıb. Lakin ingilislərin heyətində Fernandes, Cekson, Sanço və Kaysedo fərqlənərək ”Çelsi”yə titulu qazandırıblar.

# "Şamaxı"da daha bir ayrılıq

***”Şamaxı” futbolçusu Vasiliye Radenoviç ilə yollarını ayırıb.***

Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 31 yaşlı müdafiəçi ilə müqavilə müddəti başa çatıb.

Klub Radenoviçə göstərdiyi xidmətlərə görə təşəkkür edib və gələcək karyerasında uğurlar arzulayıb.

Qeyd edək ki, Radenoviç ötən ilin yayından ”Şamaxı”da oynayırdı.

Xatırladaq ki, ”Şamaxı” daha əvvəl Vasiliye Bakiç, Brahim Konate və Leroy Mikelslə də yollarını ayırıb.

# Azərbaycanda transfer pəncərələrinin vaxtı məlum oldu



***Azərbaycan Premyer Liqasında 2025/26 mövsümü üçün “transfer pəncərələri”nin vaxtı bəlli olub.***

“Unikal” xəbər verir ki, bu barədə PFL-in saytı məlumat yayıb.

Belə ki, yay transfer dövrü 19.06.2025-10.09.2025 (saat 23:59), qış transfer dövrü isə 14.01.2026-10.02.2026 (saat 23:59), tarixlərini əhatə edəcək.

31 mart 2026-cı il azad agent statusuna malik peşəkar oyunçuların sifarişi üçün son tarix kimi müəyyən edilib.

# Dadaşovla yeni müqavilə imzalandı

***Almaniyanın ”Dinamo” klubu Azərbaycan millisinin sabiq hücumçusu Rüfət Dadaşovla müqavilə müddətini artırıb.***

QOL.az xəbər verir ki,bu barədə Berlin təmsilçisinin mətbuat xidməti məlumat yayıb.

33 yaşlı hücumçunun sözləşməsi daha 2 il artırılıb.

Qeyd edək ki, Rüfət bu mövsüm ”Dinamo”nun heyətində 58 oyunda 28 qol vurub. ”Dinamo” Almaniyada Şimal-Şərq Regional Liqasında mübarizə aparır.

# Azərbaycan daha bir beynəlxalq yarışa ev sahibliyi edəcək

***Azərbaycan 2026-cı ildə xizək alpinizmi üzrə Avropa çempionatı və Dünya Kuboku yarışlarına ev sahibliyi edəcək.***

Qış İdman Növləri Federasiyasının bu turnirlərin Azərbaycanda keçirilməsi üçün Beynəlxalq Xizək Alpinizmi Federasiyasına (İSMF) ünvanladığı müraciət müsbət qarşılanıb.

Əldə olunan nəticəyə əsasən ISMF tərəfindən yarışların ”Şahdağ” Turizm Mərkəzində təşkil edilməsi ilə bağlı qərar qəbul edilib və turnirlər beynəlxalq federasiyanın yarış təqviminə salınıb.

Avropa çempionatının 2026-cı ilin martın 4-8-də, Dünya Kubokunun isə martın 6-8-də ”Şahdağ” Turizm Mərkəzində keçirilməsi nəzərdə tutulur.